QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

# SƏS

*Qəzet 1991-ci il yanvarın 11-dən çıxır*

№ 184 (5656) **29 sentyabr** 2018-ci il. "Əlincə" Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiymətі 40 qəpik**

# Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası olub

## *Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak edib*



Səh 2

5

**Ermənilərin Rusiya ümidləri ölür**



4

**"Azərbaycan-Rusiya əlaqələrinin daha da inkişaf etdirilməsi hər iki ölkənin marağındadır"**



16

**Polo üzrə Azərbaycan millisinin zəfər yürüşü davam edir**



# Düşənbədə MDB Dövlət Başçıları Şurasının geniş tərkibdə iclası olub

## *Azərbaycan Prezidenti İlham Əliyev iclasda iştirak edib*





***Sentyabrın 28-də Düşənbədə MDB Dövlət Başçıları Şurasının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə iclası olub. AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iclasda iştirak edib.***

İclasda Prezident Emoməli Rəhmon Tacikistanın sədrliyi dövründə Şuranın fəaliyyəti haqqında məlumat verdi. O, bu iclasın nəticəsi olaraq qəbul ediləcək qərarların Şuranın gələcək fəaliyyətinə töhfə verəcəyinə əminliyini ifadə etdi. Emoməli Rəhmon 2019-cu ildə MDB-yə sədrliyin Türkmənistana keçməsi barədə Şura iclasının qərarını elan etdi.

Türkmənistan Nazirlər Kabinetinin sədr müavini Purli Ağamuradov MDB-yə sədrliyin Türkmənistana keçməsi ilə bağlı qəbul edilən qərara verdikləri dəstəyə görə dövlət başçılarına minnətdarlığını bildirdi. O, sədrlik dövründə Türkmənistanın MDB məkanında əməkdaşlığın daha da genişlənməsi üçün səylərini əsirgəməyəcəyini vurğuladı.

MDB İcraiyyə Komitəsinin sədri-icraçı katib Sergey Lebedev Şuranın məhdud tərkibdə iclasında müzakirə olunmuş məsələlər barədə məlumat verdi və Şuranın növbəti iclasının 2019-cu ilin oktyabrında Türkmənistanın paytaxtı Aşqabadda keçiriləcəyini diqqətə çatdırdı.

Rusiya Federal Məclisi Federasiya Şurasının sədri, MDB Parlamentlərarası Assambleyasının sədri Valentina Matviyenko kosmik fəzanın sülh məqsədilə tədqiqi və istifadəsi sahəsində əməkdaşlığa dair hazırlanmış Konvensiyanın müddəaları ilə iclas iştirakçılarını tanış etdi.

Rusiya Prezidentinin beynəlxalq mədəni əməkdaşlıq üzrə xüsusi nümayəndəsi Mixail Şvıdkoy isə 1941-1945-ci illər Böyük Vətən müharibəsində Qələbənin 75 illiyinin bayram edilməsi ilə bağlı hazırlanmış sənəd barədə məlumat verdi. Hər iki sənəd yekdilliklə qəbul olundu.

İclasda bəzi prosedur məsələlərə baxıldı. Sonra dövlət və hökumət başçıları iclasda müzakirə olunmuş bir sıra sənədləri imzaladılar. Bununla da MDB Dövlət Başçıları Şurasının iclası başa çatdı.



### Rusiya KİV-ləri Prezident Vladimir Putinin Azərbaycana səfərini geniş işıqlandırıb

Rusiyanın aparıcı KİV-ləri Prezident Vladimir Putinin Azərbaycana səfərini geniş işıqlandırıb. AZƏRTAC xəbər verir ki, Rusiyanın "Rossiya 24" telekanalının "Vesti" xəbərlər proqramı Rusiya Prezidentinin Bakıya işgüzar səfəri ilə bağlı böyük reportaj hazırlayıb. Reportajda qeyd olunur ki, Prezident V.Putinin Bakıya səfəri qısa olsa da, mühüm məsələlərin müzakirəsi ilə yadda qalıb. Azərbaycan-Rusiya Regionlararası Forumunda prezidentlər bir sıra mühüm məsələlər, o cümlədən Xəzərin hüquqi statusuna dair Konvensiyanın qəbul edilməsindən sonra açılan geniş əməkdaşlıq perspektivlərindən danışıblar. Həmçinin dövlət başçıları Bakıda keçirilən cüdo üzrə dünya çempionatının yarışlarını da izləyiblər.

"Vesti" proqramının reportajında vurğulanır ki, bu, Rusiya və Azərbaycan prezidentlərinin 2018-ci ildə dördüncü görüşüdür. İki ölkə lideri birlikdə Azərbaycan-Rusiya Regionlararası Forumunda iştirak ediblər. Bildirilib ki, Azərbaycan və Rusiya işgüzar dairələri arasında möhkəm əlaqələr mövcuddur. Hazırda 700-dən çox birgə müəssisə fəaliyyət göstərir, Rusiya Azərbaycana 1,5 milyon dollarlıq sərmayə yatırıb.

Reportajda Azərbaycan Prezidenti İlham Əliyevin forumda səsləndirdiyi fikirlərdən sitatlar gətirilir: "Turizm sahəsində də biz Rusiya vətəndaşları tərəfindən Azərbaycanı ziyarətin çox əhəmiyyətli dərəcədə artdığını görürük. Hələ başa çatmamış 9 ay ərzində 700 minədək rusiyalı Azərbaycanı ziyarət edib. Əminəm ki, bu rəqəm də gələcəkdə artacaq".

Rusiyanın Birinci Kanalı da Vladimir Putinin Bakıya səfərinə geniş yer ayırıb. Reportajda qeyd olunur ki, Rusiya Prezidenti Vladimir Putin qısa səfəri çərçivəsində Bakıda keçirilən cüdo üzrə dünya çempionatı yarışlarına baxıb, Rusiya komandasının üzvləri ilə görüşüb. Qeyd edilir ki, Azərbaycan-Rusiya Regionlararası Forumunda hər iki ölkənin prezidentləri çıxış edərək birgə layihələrin son illər sürətlə həyata keçirilməsi, neft hasilatı və nəqli, avtomobil istehsalı, əczaçılıq və digər sahələrdə uğurlu əməkdaşlıqdan söhbət açıblar.

# Güclü Azərbaycan Ordusu qürur mənbəyimiz, fəxarət ünvanımızdır

## *İlham Əliyev: “Ermənistan bizimlə rəqabət apara bilmir”*




Azərbaycan Silahlı Qüvvələrinin 100 illik yubileyi münasibətilə iyunun 26-da Bakının Azadlıq meydanında hərbi parad bu gün də Ermənistanı narahat etməkdədir. Paradda 240-dan çox hərbi texnika, 70-dən artıq uçuş vasitəsi, o cümlədən, silahlanmaya yeni qəbul edilən ən müasir zirehli texnikalar, raket və artilleriya qurğuları, hava hücumundan müdafiə sistemləri, helikopterlər, pilotsuz uçuş aparatları kimi müxtəlif növ ən yeni silah və texnikalar nümayiş olunub.

Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi paradda çıxışı zamanı Ermənistana ünvanladığı mesajlar işğalçı ölkənin canına qorxu salıb. Dövlət başçısı ölkədə ordu quruculuğunun ən başlıca, ən prioritet məsələ olduğunu vurğulayaraq, bildirib ki, Azərbaycan Ordusu dünyanın güclü orduları sırasındadır: “Ordumuz ən müasir silahlarla, texnika ilə təchiz edilib. O cümlədən, Azərbaycanda istehsal olunan bir çox hərbi təyinatlı məhsullar ordumuzun potensialını gücləndirir. Bizim təşəbbüsümüzlə son illər ərzində 20-dən çox hərbi zavod yaradılıb. Bu zavodlarda 1200 adda hərbi təyinatlı müxtəlif məhsullar istehsal olunur, ordumuz təchiz edilir. Eyni zamanda, biz hərbi məhsullarımızı ixrac etməyə də başlamışıq. Həmçinin, Azərbaycan bir çox ölkələrdən ən müasir silah və texnika alır. Onların arasında yüzlərlə zirehli texnika, bir çox gözətçi gəmiləri, hərbi gəmilər, hava hücumundan müdafiə sistemləri, ən müasir standartlara cavab verən sistemlər, onlarla döyüş təyyarəsi, yüzdən çox döyüş, hərbi nəqliyyat, nəqliyyat helikopteri, ən müasir kəşfiyyat və döyüş pilotsuz uçuş aparatları, ən müasir artilleriya qurğuları, uzaqmənzilli raketlər, yaylım atəşli raket sistemləri, əməliyyat-taktiki raket kompleksləri - bütün bunlar bizim hərbi gücümüzü artırır. Ordunun maddi-texniki təchizatı baxımından, Azərbaycan dünya miqyasında nadir ölkələrdən biridir”.

### “Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu...”

Dövlət başçısı çıxışında 2016-cı il aprel döyüşlərini xatırlatmaqla bir daha işğalçı Ermənistana mesajını verdi və işğalçılıq siyasətindən əl çəkməyə çağırdı: “İki il bundan əvvəl Ermənistan xalqımıza qarşı növbəti hərbi təxribat törətdi, bizim mövqelərimizi atəşə tutdu, mülki əhaliyə qarşı təcavüz etdi. Həm hərbçilərimiz, həm mülki vətəndaşlar şəhid oldu. Azərbaycan Ordusu işğalçını cəzasız qoymadı, onlara layiqli cavab verdi, onları yerinə oturtdu, uğurlu əks-hücum əməliyyatı keçirərək işğal edilmiş torpaqlarımızın bir hissəsini işğalçılardan azad etdi. Ağdərə, Füzuli, Cəbrayıl rayonlarının bir hissəsi işğalçılardan azad edildi, iki min hektar ərazi təmizləndi. Uğurlu əks-hücum əməliyyatı nəticəsində, minlərlə hektar torpağa bu gün Azərbaycan Ordusu nəzarət edir. Ermənilərin torpaqlarımızda, işğal edilmiş torpaqlarda qazdıqları səngərlərdə bu gün bizim əsgərlərimiz xidmət göstərir. Lələtəpədə bizim bayrağımız dalğalanır. Ağdərə dağlarında bizim bayrağımız dalğalanır. Biz strateji yüksəklikləri əldə etmişik və bu, bizə çox böyük üstünlük verir”.

### Rusiyalı ekspert: “Azərbaycan Ordusu bütün parametrlərlə Ermənistan ordusunu üstələyir”

Rusiyanın “Silah ixracı” jurnalının baş redaktoru Andrey Frolov “Exo Moskva”ya müsahibəsində bildirib ki, bu gün Azərbaycan “az qanla, güclü zərbə ilə” Dağlıq Qarabağ münaqişəsini həll etmək üçün “yumruğunu gücləndirir”.

Dağlıq Qarabağ münaqişəsinin həll edilməməsi Azərbaycanı ordusunun inkişafına kifayət qədər ciddi vəsait ayırmağa sövq edir: “Silahlı Qüvvələrinin yeniləmə tempi baxımından Azərbaycan son illərdə MDB-nin aparıcı ölkələrindən birinə çevrilib. Azərbaycan həm Rusiyadan, həm də başqa ölkələrdən bahalı, ciddi, yaxşı xarakteristikalara malik silah sistemləri alır”. O, əlavə edib ki, bu silahların bəziləri 2016-cı ilin aprel hadisələri zamanı istifadə olunub. Ekspertin sözlərinə görə, bu gün Ermənistanın Azərbaycanın texnoloji inkişafına təkbaşına cavab vermək imkanı yoxdur: “Ermənistanın son satınalmalarının hamısı Rusiyanın verdiyi kredit hesabına başa gəlib. Rusiya isə, öz növbəsində, tərəflər arasında bərabərlik yaratmağa, müəyyən balans formalaşdırmağa çalışır. Azərbaycan Ordusu Ermənistan ordusundan qat-qat üstündür. 2016-cı ilin aprel döyüşləri isə Ermənistan üçün çox böyük şok oldu. Onlar Azərbaycan Ordusunun imkanlarını, özlərinin sandıqları kimi sarsılmaz ordularının olmadığını anladılar. Əslində, Ermənistan hərbçiləri və siyasi rəhbərliyi üçün 2016-cı ilin apreli ciddi çağırış oldu, onlar buna cavab verməlidir”.



### Ermənistanın probleminə çevrilən ordu

Göründüyü kimi, son illər Azərbaycanla silahlanma yarışında ayaqlaşa bilməyən, 2016-cı ilin aprel döyüşlərində ciddi itkilərə məruz qaldıqdan sonra mənəvi-psixoloji deqradasiya yaşayan Ermənistan ordusu getdikcə daha acınacaqlı vəziyyətə düşməkdədir. Orduda baş verən ölümlər, münasibətlərin pozulması, intihara məcburetmə və digər hadisələr, bir daha sübut edir ki, Ermənistan ordusu, nəinki Azərbaycan Silahlı Qüvvələri ilə döyüş aparmaq, hətta öz ölkəsini qorumaq üçün kifayət qədər gücə sahib deyil. Altmış min nəfərlik orduya malik Ermənistanda həqiqi hərbi xidmətə çağırış yaşı 18-27 yaş, orduda xidmət müddəti isə 2 ildir. Hərbi xidmətə çağırış ildə iki dəfə olmaqla 6 aydan bir həyata keçirilir. Erməni mediasında yer alan məlumatlara görə, 2004-cü ildən başlayaraq, demək olar ki, hər il Ermənistanda çağırış zamanı hərbi hissələrin çağırışçılarla tam şəkildə komplektləşdirilməməsi ciddi problem olaraq ortaya çıxır. Nəticə etibarı ilə hərbi xidmətdən tərxis olunanların evlərinə buraxılması bəzi hallarda aylarla ləngiyir. Bununla da daha çox döyüş bölgəsində yerləşən hərbi hissələrdə xidmət edən əsgərlər üzləşirlər. Nəticədə, səngərdə xidmətdən “yorulan” əsgərlər tərəfindən gənc əsgərlərə qarşı amansız rəftarların edilməsi, atəşkəs pozuntuları zamanı “evə getməyə hazırlaşan” əsgərlərin həlak olması kimi hadisələr yaşanır.

Fərari əsgər sayına görə də Ermənistan ordusu ön sıralardadır. Ekspertlərin fikrincə, acınacaqlı vəziyyətdə qulluq etmək istəməyən əsgərlər hərbi hissələri tərk edirlər. Məcburi hərbi xidmətdən yayınmaya görə müxtəlif illərdə minlərlə əsgərə cinayət işinin açıldığını dəfələrlə çıxışlarında vurğulayan Ermənistan hökuməti (Diaspor Nazirliyinin təşəbbüsü ilə) qanunvericiliyə dəyişikliklər hazırlamış və fərariliyə görə cinayət məsuliyyətinin müəyyən məbləğdə vəsait ödənilməklə aradan qaldırılması barədə ilk qanunvericilik aktı 2011-ci ildə qəbul edilmişdir. Həmin qanuna əsasən, gənclər 417 dollar ödəməklə məsuliyyətdən azad edilirdi. 2015-ci ildə edilən dəyişikliklə bu məbləğ 3800 dollara qaldırılıb. Elə hazırda davam edən narazılıqların səbəblərindən biri də, məhz bu dəyişiklikdir.

Məhz qələbələrə doğru addımlayan güclü Azərbaycan Ordusu qürur mənbəyimiz, fəxarət ünvanımızdır. Ölkə Prezidenti, Ali Baş Komandan İlham Əliyevin hərbi paradda dediyi sözləri bir daha vurğulamaq lazımdır: “Gün gələcək və bu gün işğal altındakı torpaqlar azad olunandan sonra orada qaldırılacaq Azərbaycan bayrağı Azadlıq meydanına gətiriləcək və hərbi paradda göstəriləcək. Biz bu müqəddəs günü yaxınlaşdırmalıyıq və yaxınlaşdırırıq”.

**RƏFİQƏ KAMALQIZI**

# Elmar Məmmədyarov Macarıstanın "Komandor Xaçı" Ləyaqət Ordeni ilə təltif olunub



Azərbaycanın xarici işlər naziri Elmar Məmmədyarov Nyu-Yorkda BMT Baş Assambleyasının 73-cü sessiyası çərçivəsində Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto ilə görüşüb. Nazirlər ikitərəfli əməkdaşlıq məsələlərini, o cümlədən iqtisadi və ticarət münasibətlərini müzakirə edib, regional enerji və nəqliyyat layihələri üzrə fikir mübadiləsi aparıblar.

Görüş zamanı xarici işlər naziri Elmar Məmmədyarovun Azərbaycan və Macarıstan arasında münasibətlərin inkişafına verdiyi töhfəyə görə Macarıstanın "Komandor Xaçı" Ləyaqət Ordeni ilə təltif olunduğu bildirilib. Mükafatı azərbaycanlı həmkarına təqdim edən Peter Siyarto ikitərəfli münasibətlərin inkişafına verdiyi dəyərli töhfəyə görə Azərbaycanın xarici işlər nazirinə təşəkkürünü bildirib. O, ikitərəfli əlaqələrin, xüsusilə də iqtisadi və enerji sahələrində əməkdaşlığın daha da inkişaf edəcəyinə inamını ifadə edib.

E.Məmmədyarov mükafata görə Macarıstan nazirinə təşəkkür edərək, bunu Azərbaycan və Macarıstan arasında qarşılıqlı faydalı əməkdaşlığın daha da möhkəmləndirilməsi üçün həvəsləndirici amil kimi dəyərləndirib.

# "Küveytlə Naxçıvan arasında iqtisadiyyat və turizm sahəsində geniş əməkdaşlıq imkanları mövcuddur"



Qədim diyara səfərimdən sonra bir daha əmin oldum ki, Küveytlə Azərbaycanın Naxçıvan Muxtar Respublikası arasında iqtisadiyyat və turizm sahəsində geniş əməkdaşlıq imkanları mövcuddur. Bu sözləri AZƏRTAC-ın Naxçıvan bürosuna müsahibəsində Küveyt Dövlətinin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Səud Əbdüləziz əl-Rumi deyib. Naxçıvandakı istehsal sahələri ilə tanışlığın onda dərin təəssürat yaratdığını, muxtar respublikanın ixrac imkanları barədə aydın təsəvvür formalaşdırdığını diqqətə çatdıran səfir deyib: "Səfər zamanı "Gəmiqaya Mebel Fabriki"ndə və "Gəmiqaya Daş Məhsulları Sənaye Kompleksi"ndə oldum. Bu müəssisələrdə yüksəkkeyfiyyətli məhsullar istehsal edilir. Naxçıvan Dövlət Xalça Muzeyinə də baş çəkdim. Orada çox gözəl qədim xalçalar nümayiş etdirilir. Muxtar respublikada qədim xalçaçılıq ənənələri yaşadılır. Naxçıvan şəhərində xalça istehsalı emalatxanası tikilir. Ümid edirəm ki, gələcəkdə bu qədim diyarda xalça istehsalı daha da artacaq. Bizim ölkəmizdə xalçaya böyük tələbat var. İnanıram ki, biz Naxçıvandan xalça idxal edə biləcəyik". "Naxçıvana səfərim zamanı bu qədim diyarın tarixi və mədəniyyəti ilə yaxından tanış oldum. Buradakı muzeylərlə, Əshabi-Kəhf ziyarətgahı ilə, həmçinin İslam mədəniyyətinə aid abidələrlə tanışlığım zamanı Naxçıvanın, həqiqətən də qədim bir tarixə malik olduğuna şahidlik etdim. Əshabi-Kəhf ziyarətgahında yaradılan şərait xüsusilə diqqətimi cəlb etdi", - deyən səfir vurğulayıb ki, bütün bunlar Naxçıvan şəhərinin 2018-ci il üçün İslam Mədəniyyətinin Paytaxtı seçilməsinin heç də təsadüfi olmadığını deməyə əsas verir.

# MDB-nin növbəti sammiti 2019-cu il oktyabrın 11-də Aşqabadda keçiriləcək

MDB-nin növbəti sammiti 2019-cu il oktyabrın 11-də Aşqabadda keçiriləcək. Bu barədə təklif Türkmənistan tərəfdən gəlib. AZƏRTAC TASS informasiya agentliyinə istinadla xəbər verir ki, bunu MDB icraiyyə komitəsinin rəhbəri Sergey Lebedev təşkilatın Düşənbədə keçirilən sammitinin geniş tərkibli iclasında bildirib. Onun sözlərinə görə, məhdud tərkibdə keçirilən iclasın gedişində dövlət başçıları Birliyin aktual məsələləri barədə fikir mübadiləsi aparıblar. "Türkmənistanın 2019-cu ildə MDB-yə sədrliyi barədə qərar qəbul olunub. Həmsədrliyi isə Tacikistan və Özbəkistan həyata keçirəcək", - deyə S.Lebedev əlavə edib.

# Ziyafət Əsgərov: "Azərbaycan-Rusiya əlaqələrinin daha da inkişaf etdirilməsi hər iki ölkənin marağındadır"



Azərbaycan-Rusiya əlaqələrinin daha da inkişaf etdirilməsi hər iki ölkənin marağındadır. Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclis sədrinin birinci müavini Ziyafət Əsgərov deyib. Ziyafət Əsgərov bildirib ki, Rusiya və Azərbaycan prezidentlərinin görüşləri son vaxtlar intensiv xarakter alıb. Bu da başa düşüləndir. Çünki Azərbaycan-Rusiya münasibətləri strateji xarakter daşıyır və ölkələrimiz arasında müxtəlif sahələrdə sıx əlaqələr mövcuddur. Rusiya bizim üçün yaxın dost, qonşu dövlətdir. Rusiyanın regionları ilə də Azərbaycan arasında sıx əlaqələr var.

"İqtisadi münasibətimiz yüksələn xətlə inkişaf edir. Rusiya Prezidenti Vladimir Putinin ölkəmizə səfəri, Prezident İlham Əliyevlə görüşü, Bakıda IX Azərbaycan-Rusiya Regionlararası Forumunun keçirilməsi doğurdan da çox əlamətdar bir haldır. Əminəm ki, bundan sonra da Azərbaycan-Rusiya münasibətləri yüksələn xətlə inkişaf etdiriləcək", - deyə Milli Məclis sədrinin birinci müavini vurğulayıb.

# General Qasım Rezayi: ən sabit sərhədimiz Azərbaycanla olan sərhədimizdir



İran İslam Respublikası 900 min kilometr dövlət sərhədinə malikdir. Ən sabit sərhədimiz isə Azərbaycan Respublikası ilə olan sərhəd xəttimizdir. Buna qarşılıqlı əməkdaşlıq nəticəsində nail olmuşuq. Bu sözləri AZƏRTAC-a müsahibəsində İranın Sərhəd Xidmətinin rəisi general Qasım Rezayi deyib. General diqqətə çatdırıb ki, Azərbaycan sərhədçiləri ilə qarşılıqlı əməkdaşlığın nəticəsi olaraq sərhəd pozuntusunun qarşısı qısa zaman kəsiyində alınır. Narkotik vasitələrin və silah-sursat qaçaqmalçılığına, qanunsuz miqrasiyaya qarşı Azərbaycan Dövlət Sərhəd Xidməti ilə birlikdə mübarizə aparılır.

Qasım Rezayi bildirib ki, İranın Əfqanıstan və Pakistanla sərhədində tez-tez silahlı toqquşmalar baş verir. Narkotik vasitələrin qaçaqmalçılığı ilə məşğul olan quldur dəstələri İran ərazisindən tranzit kimi istifadə edib, narkotiklərin Azərbaycan və Türkiyə üzərindən Avropa ölkələrinə daşınmasına cəhd edirlər. Lakin bu cəhdlərin qarşısı alınır. Həmin sərhəd zonalarından terrorçu qruplar da İran ərazisinə soxulmağa çalışırlar. Bu kimi halların qarşısının alınması istiqamətində həyata keçirilən tədbirlər zamanı 4 minə yaxın İran sərhədçisi şəhid olub. Hər gün bu sərhəddə 10-dək hadisə baş verir.

"Biz Avropaya narkotik vasitələrin daşınmasının qarşısını cidd-cəhdlə almağa çalışırıq. Bunun üçün Avropadan kömək istəsək də, müsbət cavab ala bilmirik", - deyə general vurğulayıb. Ötən il Bakıya səfərini xatırladan general deyib ki, Azərbaycan Dövlət Sərhəd Xidmətinin fəaliyyəti ilə yaxından tanış olub. Azərbaycanda sərhəd mühafizəsi yüksək səviyyədə təşkil edilib. İran sərhədçiləri öz fəaliyyətlərində Azərbaycan sərhədçilərinin təcrübəsindən də istifadə edirlər. Narkotik vasitələrin qaçaqmalçılığının qarşısını almaqda İran sərhədçilərinin də böyük təcrübəsi var. "Biz bu təcrübəni azərbaycanlı həmkarlarımızla bölüşürük. Gələcəkdə Azərbaycan sərhədçiləri ilə əməkdaşlıq əlaqələrini daha da genişləndirmək niyyətindəyik", - deyə Qasım Rezayi bildirib.

# Bu ilin Nobel mükafatı laureatları oktyabrda elan ediləcək



Oktyabrın 1-dən 8-dək laureatlara Nobel mükafatı, habelə Alfred Nobelin xatirəsinə iqtisad elmləri üzrə İsveç Bankının mükafatı təqdim ediləcək. AZƏRTAC xəbər verir ki, barədə Azərbaycan Milli Elmlər Akademiyası "Nobelprize.org" saytına istinadla məlumat yayıb. Məlumatda bildirilir ki, oktyabrın 1-də fiziologiya və ya tibb, 2-də fizika, 3-də kimya, 5-də Nobel Sülh mükafatı, 8-də İsveç Bankının mükafatı təqdim ediləcək. Ədəbiyyat üzrə Nobel mükafatının təqdim edilməsi tarixi barədə isə İsveç Akademiyası tərəfindən əlavə məlumat veriləcək. 2018-ci il üçün hər bir kateqoriya üzrə mükafatın məbləği 9 milyon İsveçrə kronu (təqribən 1,1 milyon dollar) müəyyənləşdirilib.

# Yeni nəsil şəxsiyyət vəsiqəsinin elektron daşıyıcısında yerləşdirilən müəyyən məlumatların oxunması mümkündür



Məlum olduğu kimi, bu il sentyabrın 1-dən ölkədə yeni nəsil elektron şəxsiyyət vəsiqəsinin tətbiqinə başlanılıb. Daxili İşlər Nazirliyinin mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, qanunvericiliyə əsasən həmin sənəd sahibinin yaşayış yeri, ailə vəziyyəti və hərbi vəzifəsi barədə dəyişə bilən məlumatlar elektron daşıyıcıda (çipdə) yerləşdirilir.

Şəxsiyyət vəsiqəsinin çipində göstərilən məlumatların oxunması üçün nəzərdə tutulmuş xüsusi fayllar istehsalçı şirkət tərəfindən təqdim olunub. Həmin fayllar Daxili İşlər Nazirliyinin (mia.gov.az) və Baş Pasport Qeydiyyat və Miqrasiya İdarəsinin (bpqmi.gov.az) rəsmi internet saytlarında yerləşdirilib. (https://mia.gov.az/?/az/-news/view/1237/) və (http://www.bpqmi.gov.az/?/az/news/view/117/) linklərindən yükləyərək istifadəçi təşkilatın (fiziki və hüquqi şəxsin) istifadə etdiyi proqram təminatına inteqrasiya etməklə vəsiqə sahibi barədə məlumatları xüsusi qurğu (çip rider) vasitəsilə oxumaq və zərurət olduqda eksport etmək mümkündür.

# Ermənilərin Rusiya ümidləri ölür

## "1in.am": "Putinin vaxtı yoxdur - Moskva növbəti dəfə Ermənistanı ələ salıb"

**"Rusiya prezidenti yaxın günlərdə Ermənistanı ziyarət edəcək, bu istiqamətdə müzakirələr davam edir". "1in.am"-a istinadən, bu barədə jurnalistlərlə söhbətində Ermənistan XİN-in mətbuat katibi Tiqran Balayan deyib. Məsələnin maraqlı tərəfi ondadır ki, Rusiya tərəfi Ermənistan XİN-in bəyanatlarının üzərindən çalın-çarpaz xətlər çəkən fikirlərlə çıxış edir. Daha doğrusu, Rusiya rəsmiləri Ermənistanla münasibətlər baxımından, bu gözlənilən görüşü əhəmiyyətli hesab etmədiklərini istər dolayı, istərsə də birbaşa bəyan edirlər. Misal üçün, Balayanın bəyanatı çərçivəsində, bəlli olub ki, Putinin səfər tarixi, hələ ki, dəqiqləşdirilməyib. "Deyə bilərəm ki, biz və Rusiya tərəfi səfəri təsdiq etmişik. Lakin onu da deyə bilmərəm ki, yaxın günlərdə, sadəcə, tez bir zamanda həmin səfər baş tutacaq" deyə Balayan bildirib.**





### Rəsmi Moskva Yerevanı bu cür inkar edir - Yuri Uşakov: "Ermənistana səfər məsələsi, yaxud onun tarixi barədə. hələ ki, müzakirələr aparılmır..."

Erməni saytı yazır ki, erməni-rus münasibətləri baxımından, Moskvada sanki Yerevandakı bəyanatları inkar etmək üçün gözləmə mövqeyində dayanıblar. Sayt buna misal olaraq, Rusiya prezidentinin köməkçisi Yuri Uşakovun fikirlərinə diqqət yetirib. Belə ki, rusiyalı rəsmisinin sözlərindən belə anlaşılıb ki, Putinin Ermənistana səfəri Moskva üçün prioritet deyil və Yerevan, sadəcə, sakit halda öz "növbəsini" gözləməlidir.

"Həqiqətən də bizim prezidentin Ermənistana səfər təşkilatçılığı müzakirə edilib, lakin konkret vaxt müzakirə olunmayıb" deyə Uşakov ənənəvi brifinqində bildirib.

"Nəzərdə olan budur ki, prezidentlər yalnız Düşənbədə keçiriləcək MDB sammitində deyil, eyni zamanda, Astanada KTMT-nin sessiyasında da görüşəcəklər. Bu dəfə və dekabrda Moskvada Avrasiya İqtisadi İttifaqının sammitinin keçirilməsi planlaşdırılır, o cümlədən, liderlərin ən uzağı, çox qısa danışıqları mümkünlüyü var. Ermənistana səfər məsələsi, yaxud onun tarixi barədə, hələ ki, müzakirələr aparılmır... Hesab edirəm ki, çox yəqin, səfər planı gələn ilə hesablanıb" deyə rusiyalı siyasi bildirib. O xatırladıb ki, Rusiya lideri ilə Ermənistanın baş naziri Nikol Paşinyanın görüşü yaxınlarda olub.

### Erməni mediası: "Uşakov, hətta demək istəyir ki, hazırkı erməni-rus münasibətləri ora qədər inkişaf etməyib ki, prioritetdə görüşün tarixi və növbəsi barədə vaxt müəyyənləşsin, eləcə də, Paşinyan Putinlə şəkil çəkdirmək imkanı əldə etsin"

Beləliklə, Putinin Ermənistana səfərinin mümkünlüyü barədə Rusiya tərəfinin etinasız bəyanatlar verməsi erməni tərəfində narahatlıqla yanaşı, qıcıq da doğurur. Misal üçün, müəllif yazır ki, erməni tərəfi Putinin Yerevan səfəri və həmin səfərin rəsmi olacağı barədə inadla bəyanatlar verdiyi halda, Rusiya tərəfi Paşinyan və Putin görüşünün başqa meydançalarda görüşmək ehtimalı olduğunu bildirirlər: "Uşakov, hətta demək istəyir ki, hazırkı erməni-rus münasibətləri ora qədər inkişaf etməyib ki, prioritetdə görüşün tarixi və növbəsi barədə vaxt müəyyənləşsin, eləcə də, Paşinyan Putinlə şəkil çəkdirmək imkanı əldə etsin.

"Yeri gəlmişkən, baş nazir Nikol Paşinyan Putinlə üç dəfə görüş keçirib və onların heç biri rəsmi olmayıb" deyə "1in.am" saytında xatırladılır: "Ermənistan-Rusiya münasibətləri, bax, bu cür "parlaq" münasibətlər mənzərəsini göstərir. Putinin ətrafında da inanırlar ki, Ermənistanın qaçmağa yeri yoxdur və o, Putinin "qardaşlıq" səfərini səbirlə gözləməyə məhkumdur, əlbəttə ki, Putinin boş vaxtı olacaqsa..."

Nəticədə, Ermənistanda, məhz Paşinyanın "məxməri inqilabı" tərəfindən ortaya atılan anti-Rusiya meyilləri artıq özünün acı nəticələrini verməkdədir. Artıq Ermənistan mediasında Rusiya barədə danışılarkən, yazılarkən, tamamilə mənfi ştirxlərə toxunulur.

**Rövşən NURƏDDİNOĞLU**

---

# Mübariz Əhmədoğlu: "Gürcüstan Ermənistanı zəiflədərək özünün təsiri altına sala bilər"

***"Dağlıq Qarabağ probleminin həlli Ermənistanın işğalçılıq fəaliyyətinin puça çevrilməsi deməkdir. 30 il külli miqdarda resurs xərclədikdən sonra Dağlıq Qarabağı tərkibinə qoşa bilməyən və ya müstəqil edə bilməyən Ermənistanın Gürcüstanda separatçılıqla məşğul olmaq gücü də tükənəcəkdir. Məhz buna görə Gürcüstanın indiki hökuməti Dağlıq Qarabağ tənzimlənməsi ilə məşğul olmağa meyllənib. Dağlıq Qarabağ tənzimlənməsinə Gürcüstanın marağına da məhz Ermənistanı ram etmək kontekstindən yanaşılmalıdır. Bu həm də Gürcüstanın özünün ərazi bütövlüyünə dəstək olacaqdır". Bu barədə SİA-ya açıqlamasında politoloq Mübariz Əhmədoğlu deyib.***



M.Əhmədoğlu bildirib ki, Gürcüstanın Dağlıq Qarabağ tənzimlənməsində məşğul olmaq üçün müstəsna imkanları mövcuddur: "Gürcüstanda çoxlu sayda (500 min azərbaycanlı, 300 min erməni) azərbaycanlı və ermənin yaşaması, bir-biri ilə normal əlaqədə olması bu müstəsna imkanın əsas tərkib hissəsidir. Həm də Dağlıq Qarabağda müharibə olacağı təqdirdə bu icmalar Gürcüstanın daxilində vəziyyəti gərginləşdirə bilərlər. Gürcüstanda başa düşürlər ki, Dağlıq Qarabağ probleminin həlli, Azərbaycanın gücünün artması, Ermənistanın isə gücünün zəifləməsinə gətirib çıxaracaq. Gürcüstanda müəyyən qrup Azərbaycanın gücünün artmasının əleyhinə olduğu üçün Ermənistanın zəifləməsinin tərəfdarı deyil. Amma indi Gürcüstan Ermənistanı zəiflədərək özünün təsiri altına sala bilər və beləliklə B.İvanişvili Gürcüstanı keyfiyyətcə yeni Gürcüstana çevrilir. Bu işdə Dağlıq Qarabağ tənzimlənməsində Gürcüstanın vasitəçilik missiyası çox vacib regional tutuma malik olur. Ermənistanın zəiflətdiyi kimi Gürcüstan Azərbaycandan problemin həllinə yardım etdiyinə görə əlavə divident istəyəcəkdir və ya Azərbaycan özünü Gürcüstanın qarşısında borclu biləcəkdir. Ona görə Q.Marqvelaşvilinin müşaviri T.Pxaladzenin "Gürcüstan Dağlıq Qarabağ tənzimlənməsində vasitəçilik edə bilər" tezisini və bu tezisə B.İvanişvili komandası tərəfindən dərhal reaksiya verilməsini təsadüfi hesab etmirik".

---

## Şirin səyahət: Azərbaycan turistləri fərqli qarşıladı

Dövlət Turizm Agentliyi tərəfindən 27 sentyabr -Ümumdünya Turizm Günü münasibətilə bir sıra tədbirlər keçirilib. Agentlikdən AZƏRTAC-a bildirilib ki, ilk dəfə olaraq ölkəmizə gələn turistlər tamamilə fərqli qarşılanıb, 24 saat ərzində ölkəyə hava limanından daxil olan hər bir turistə sərhəd buraxılış məntəqəsində milli şirniyyatlardan ibarət hədiyyələr təqdim olunub. Bundan əlavə, gün ərzində Bakı şəhəri üzrə turistik yerlərə gəzintilər həyata keçirən "Baku City Tour" avtobuslarına 50 faiz endirim tətbiq olunub, "Yanardağ" və "Atəşgah məbədi" dövlət qoruqları isə ödənişsiz fəaliyyət göstəriblər. Həmçinin Fəvvarələr meydanında milli sənətkarlıq nümunələrinin nümayişi və ustad dərsləri keçirilməklə yanaşı, axşam saatlarında canlı konsert təqdim edilib. Sənətkarların əl işlərindən ibarət sərgi dörd gün davam edəcək.

Dövlət Turizm Agentliyi tərəfindən təşkil olunacaq növbəti irimiqyaslı tədbir Bakı Konqres Mərkəzində baş tutacaq. Belə ki, oktyabrın 18-də Milli Turizm Sammiti keçiriləcək. Sammit çərçivəsində Azərbaycanın yeni milli turizm brendinin təqdimatı olacaq.

---

## "ADEX-2018" sərgisi Azərbaycan silahlarına beynəlxalq marağı artırır"

"Ölkəmiz artıq illərdir ki, hərbi sahədə böyük strateji addımlar atır və bu addımlardan ən mühümü Azərbaycanda Müdafiə Sənayesi Nazirliyinin yaranması idi. Bu gün Nazirliyin istehsal etdiyi silahlar dünya bazarında özünə yer almaqdadır". Bu fikirləri SİA-ya açıqlamasında Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədr müavini, ehtiyatda olan polkovnik Cəlil Xəlilov deyib. Artıq bir sıra ölkələrin Azərbaycanda istehsal olunan silahlara böyük maraq göstərdiyini deyən ehtiyatda olan polkovnik bildirib ki, "ADEX-2018" kimi Beynəlxalq Müdafiə sərgilərinin ölkəmizdə keçirilməsi dünyada Azərbaycanın istehsalı olan silahlara olan marağın daha da artmasına xidmət edir: "Bildiyiniz kimi sərgidə Azərbaycanla yanaşı digər ölkələrin də silah-sursatları nümayiş olunur. Bütün bunlar Azərbaycanın dünya ölkələri tərəfindən silah istehsalçısı kimi qəbul edildiyinin göstəricisidir ".

C. Xəlilov söyləyib ki, Azərbaycan tərəfindən həyata keçirilən paradlar, xarici nümayəndələrin iştirakı ilə reallaşan təlimlərdən də görünür ki, ölkəmiz dəqiq, müasir texnologiya tələblərinə cavab verən silahlara malikdir: "Biz bunu Azərbaycanın hərbi gücü ilə yanaşı, iqtisadi gücünün nümayişi kimi də dəyərləndirə bilərik. Azərbaycan öz silahlı qüvvələrini təmin etməklə yanaşı, xarici ölkələrə də silah satışı həyata keçirir". "ADEX-2018" sərgisinin Ermənistanda narahatçılıq doğurduğunu deyən ehtiyatda olan polkovnik vurğulayıb ki, Azərbaycanın hərbi gücünü artırmaqla Ermənistanı sülhə məcbur etməlidir: "Çünki, Azərbaycanın bundan başqa çıxış yolu yoxdur. Biz Beynəlxalq təşkilatların vədlərinə inanmamalı, öz hərbi gücümüzdən istifadə edərək torpaqlarımızı işğaldan azad etməliyik".

# "Azərbaycan parlamenti ölkəmizin milli maraqlarına və inkişafına xidmət edən məqsədyönlü fəaliyyətini uğurla davam etdirir"



*Milli Məclis sədrinin müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradovanın Yap.org.az-a müsahibəsi*

***- Bahar xanım, sentyabrın 21-də Milli Məclisdə Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclas keçirildi. Azərbaycanın ötən müddət ərzində keçdiyi şərəfli tarixi yola yenidən nəzər salındı, ölkəmizin zəngin dövlətçilik təcrübəsinə və parlamentarizm ənənələrinə malik olduğu bir daha diqqətə çatdırıldı. Bu barədə nə deyə bilərsiniz?***

- Azərbaycan zəngin dövlətçilik ənənələrinə malikdir. Şərqin ilk demokratik respublikası olan Azərbaycan Xalq Cümhuriyyətinin yaranması isə tariximizin ən mühüm - şanlı və qürurlu səhifələrindən birini təşkil edir. Olduqca mürəkkəb tarixi dönəmdə və şəraitdə yaranan Xalq Cümhuriyyəti 23 ay mövcud olmasına baxmayaraq, böyük bir coğrafiyanın siyasi həyatında mühüm rol oynadı, Cümhuriyyətin fəaliyyəti sayəsində dövlətçilik tariximizin əsasları daha da zənginləşdi. Hər şeydən əvvəl, Şərqin ilk demokratik respublikası olan Xalq Cümhuriyyəti mütərəqqi dövlətçilik ənənələri formalaşdırdı. Bu dövrdə müxtəlif sahələri əhatə edən və strateji əhəmiyyətə malik olan çox mühüm addımlar atıldı və tarixi qərarlar qəbul olundu. 1918-ci il dekabrın 7-də Azərbaycan Xalq Cümhuriyyətinin parlamentinin yaradılması bu baxımdan tarixi əhəmiyyətə malikdir. Parlamentli respublika sisteminin tətbiq edilməsi, demokratik və dünyəvi dövlətçilik yolunda ardıcıl və məqsədyönlü addımların atılması təkcə Azərbaycanın deyil, bütün müsəlman Şərqinin siyasi həyatı üçün əlamətdar oldu. Bu dövrdə parlament qəbul etdiyi qərarlarla milli dövlətçiliyimizin əsaslarının gücləndirilməsinə tarixi töhfələr vermiş oldu.

Təqdirəlayiq haldır ki, Azərbaycan Xalq Cümhuriyyətinin 100 illiyi respublikamızda və ölkəmizin hüdudlarından kənarda böyük ruh yüksəkliyi və qürur hissi ilə qeyd edilir. Azərbaycan parlamentinin 100 illiyi münasibətilə təntənəli iclasın keçirilməsi də bu baxımdan xüsusilə qeyd edilməlidir. Qeyd edim ki, tədbirə dünyanın müxtəlif ölkələrindən parlamentarilər, rəsmilər, beynəlxalq təşkilatların nümayəndələri qatılmışdılar. Daha dəqiq desək, 44 ölkədən 137 parlamentari və 9 beynəlxalq təşkilatın nümayəndələri, bütövlükdə, çoxsaylı qonaqlar bu təntənəli tədbirdə iştirak edirdilər. Çıxış edənlər birmənalı olaraq vurğuladılar ki, bu, Azərbaycan xalqı üçün olduqca şərəfli və qürurverici tarixdir. Həmin dövrdə Azərbaycan parlamenti dünyada parlamentarizm ənənələrinin zənginləşməsinə çox mühüm töhfələr vermişdir. Bəhs olunan təntənəli iclasda çıxış edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Xalq Cümhuriyyəti dövründə 200-dən çox qanunun qəbul edildiyini diqqətə çatdıraraq qadınlara səsvermə hüququ verilməsini xüsusilə vurğuladı: "Yəni qısa müddət ərzində Azərbaycan Xalq Cümhuriyyəti böyük işlər gördü. Bu gün Azərbaycan xalqı, Azərbaycan dövləti Azərbaycan Xalq Cümhuriyyətinin və onun qurucularının fəaliyyətini yüksək qiymətləndirir. Təsadüfi deyil ki, 2018-ci il mənim Sərəncamımla "Azərbaycan Xalq Cümhuriyyəti İli" elan edilmişdir".

Bu gün Xalq Cümhuriyyətinin varisi olan müasir müstəqil Azərbaycan dinamik inkişaf yolunda əmin addımlarla irəliləyir, tarixi nailiyyətlər qazanır və yeni zirvələr fəth edir. Azərbaycan parlamenti də milli maraqlara və ölkənin inkişafına xidmət edən səmərəli fəaliyyətini uğurla davam etdirir. Respublika parlamenti ötən müddət ərzində çox mühüm qanunlar qəbul edib və ölkəmizdə zəngin qanunvericilik bazasının formalaşmasına öz dəyərli, layiqli töhfələrini verib. Ümumiyyətlə, Azərbaycanın parlamentarizm ənənələri və təcrübəsi bəşər ictimai-siyasi fikir tarixinə əhəmiyyətli töhfədir. Xüsusi məqam ondan ibarətdir ki, Azərbaycan parlamentariləri mövcud hədəflər və çağırışlara müvafiq olaraq milli maraqlara xidmət edən vəzifələrin yerinə yetirilməsi istiqamətində ardıcıl fəaliyyətlərini müvəffəqiyyətlə davam etdirirlər. Xüsusilə, Azərbaycanın milli maraqlarını beynəlxalq miqyasda qətiyyətlə müdafiə edirlər, ölkəmizə qarşı qərəzli və məkrli niyyətlərə söykənən qərarların, qətnamələrin qəbul olunmasının qarşısını alırlar. Prezident İlham Əliyev bu məqamlara toxunaraq bildirdi ki, parlament diplomatiyası Azərbaycanda diplomatik sahədə önəmli rol oynayır. Azərbaycan deputatları da bir çox parlamentlərarası assambleyalarda ölkəmizdə gedən proseslər, iqtisadi, siyasi islahatlarla bağlı Azərbaycan həqiqətlərini çatdırır, lazım olan vaxtda ölkəmizi çox ciddi müdafiə edir, haqq-ədaləti bərpa edir, imkan vermirlər ki, Azərbaycana qarşı əsassız ittihamlar hansısa qərarlara gətirib çıxarsın.

***- Xalq Cümhuriyyətinin varisi olan müasir müstəqil Azərbaycan bu gün dünyada etibarlı tərəfdaş kimi tanınır, ölkəmizin beynəlxalq mövqeyi davamlı olaraq möhkəmlənir. Bununla bağlı fikirləriniz nədən ibarətdir?***

- Bir əsrdə iki dəfə müstəqillik əldə edən ölkəmiz ötən müddət ərzində bütün sahələrdə möhtəşəm nailiyyətlər qazanıb və Azərbaycan çoxəsrlik tarixində heç vaxt indiki qədər güclü, qüdrətli olmayıb. Bu gün Azərbaycan təkcə Cənubi Qafqaz regionunun lider dövləti kimi tanınmır, eyni zamanda, ölkəmiz dünya siyasətində etibarlı tərəfdaş kimi tanınır, çox yüksək beynəlxalq nüfuza malikdir. Çoxvektorlu və səmərəli xarici siyasət həyata keçirən Azərbaycanın beynəlxalq mövqeyi mütəmadi olaraq möhkəmlənir, ölkəmizin dünyadakı rolu artır. Azərbaycanla əməkdaşlıq etmək istəyən ölkələrin sayının getdikcə artması olduqca qürurverici haldır. Ölkəmiz dünyanın ən mötəbər qurumu olan BMT Təhlükəsizlik Şurasına iki dəfə sədrlik edib və bu, Azərbaycanın həyata keçirdiyi siyasətə beynəlxalq miqyasda verilən yüksək qiymətin bariz nümunəsi və ifadəsidir. Respublikamız gələn il BMT-dən sonra ikinci böyük təşkilat olan Qoşulmama Hərəkatına sədrlik etməyə başlayacaq. Bu da olduqca mühüm əhəmiyyət kəsb edir. Bütövlükdə isə, beynəlxalq ictimaiyyət - dünya birliyi Azərbaycana böyük hörmətlə yanaşır, respublikamiza olan rəğbət xüsusi olaraq ifadə edilir.

Siyasi, iqtisadi, mədəni, humanitar və digər sahələrdə ikitərəfli və çoxtərəfli münasibətləri uğurla davam etdirən Azərbaycanı fərqləndirən ən mühüm və səciyyəvi keyfiyyətlərdən biri müstəqil siyasətin həyata keçirilməsidir. Azərbaycanın xarici siyasəti həm müstəqil xarakter daşıyır, həm də beynəlxalq hüquq normalarına və prinsiplərinə söykənir, ikitərəfli, çoxtərəfli münasibətlərin ruhuna - mahiyyətinə əsaslanır. Respublikamızın moderatorluğu və təşəbbüsü ilə strateji əhəmiyyətli layihələr reallaşdırılır, Azərbaycan Avrasiyanın enerji və nəqliyyat xəritəsini yaradır. Yəni ölkəmiz regional və beynəlxalq təhlükəsizliyə, əməkdaşlığa çox mühüm töhfələr verir. Prezident İlham Əliyev bəhs olunan çıxışı zamanı diqqətə çatdırdı ki, Azərbaycan beynəlxalq məsələlərlə bağlı çox uğurlu siyasət aparır, qonşu ölkələrlə əlaqələrimiz ən yüksək səviyyədədir: "Azərbaycan İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində çox böyük hörmətə layiqdir. Avropa İttifaqının üzvü olan 9 ölkə ilə bizim strateji tərəfdaşlıq haqqında sənədimiz var və bu il Tərəfdaşlıq Prioritetləri sənədi imzalanıb".

Şərqlə Qərbin qovuşuğunda yerləşən Azərbaycan bu gün həm də beynəlxalq dialoq və əməkdaşlıq məkanı kimi tanınır. Ölkəmizdə çox mühüm və mötəbər beynəlxalq tədbirlər keçirilir, regionda və dünyada siyasi proseslərə ciddi şəkildə müsbət təsir edən vacib qərarlar qəbul edilir. Bütün bunları mümkün edən başlıca amil, təbii ki, güclü, qüdrətli Azərbaycanın müstəqil siyasətini uğurla davam etdirməsi və beynəlxalq mövqelərini mütəmadi olaraq möhkəmləndirməsidir.

***- Azərbaycan, eyni zamanda, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq normalarına əsasən, yəni ölkəmizin ərazi bütövlüyü çərçivəsində həll olunması istiqamətində qətiyyətli mövqe və siyasətini davam etdirir. Bununla bağlı nə söyləmək olar?***

- Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin ölkəmizin ərazi bütövlüyü çərçivəsində həlli istiqamətində öz qətiyyətli mövqeyini və fəal diplomatik səylərini davam etdirir. Bunun nəticəsidir ki, ayrı-ayrı beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı müxtəlif qərar və qətnamələr qəbul ediblər. Prezident İlham Əliyev Azərbaycan parlamentinin 100 illiyi münasibətilə keçirilən təntənəli iclasda bu məqamlara da toxundu və diqqətə çatdırdı ki, münaqişənin həllinin bir yolu var. Ermənistan silahlı qüvvələri bizim torpaqlarımızdan çıxarılmalıdır, Azərbaycan öz ərazi bütövlüyünü bərpa etməlidir və ondan sonra bölgədə sülh yarana bilər. Dövlət başçısı Azərbaycanın ərazi bütövlüyünün bütün dünya tərəfindən tanındığını, bütün ölkələrin Azərbaycanın ərazi bütövlüyünü dəstəklədiyini və Dağlıq Qarabağın Azərbaycanın ayrılmaz hissəsi olduğunu vurğuladı. Əlbəttə, Prezident İlham Əliyevin həmin tədbirdə Dağlıq Qarabağ münaqişəsi ilə bağlı reallıqları və Azərbaycanın mövqeyini qətiyyətlə diqqətə çatdırması çox mühüm əhəmiyyətə malikdir. Bu baxımdan ki, orada müxtəlif ölkələrin parlamentariləri iştirak edirdilər və onlar obyektiv reallıqları əsas götürərək öz ölkələrinin parlamentlərində bu məsələ ilə bağlı müxtəlif qərarların qəbul edilməsinə, eləcə də dövlət siyasətinə əhəmiyyətli dərəcədə təsir göstərə bilərlər.

İndiki şəraitdə parlament diplomatiyası da Dağlıq Qarabağ münaqişəsinin həllinə dair beynəlxalq miqyasda mühüm qərar və qətnamələrin qəbul edilməsinə çox ciddi təsir göstərir. Azərbaycan deputatlarının beynəlxalq miqyasda fəaliyyətinin prioritet istiqamətini Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar reallıqların dünya ictimaiyyətinə çatdırılması təşkil edir. Bu istiqamətdə ardıcıl və məqsədyönlü fəaliyyət uğurla davam etdirilir. Son illərdə Avropa Şurası Parlament Assambleyası, Avropa Parlamenti kimi beynəlxalq təşkilatlar Dağlıq Qarabağ münaqişəsi ilə bağlı ədalətli və beynəlxalq hüquq normalarına əsaslanan, ölkəmizin ərazi bütövlüyünün dəstəkləndiyi qətnamələr qəbul ediblər. Bu, olduqca mühüm əhəmiyyətə malikdir.

Bütövlükdə, Azərbaycanın Dağlıq Qarabağ münaqişəsinin həlli məsələsində qətiyyətli - prinsipial mövqeyi beynəlxalq hüquq normalarına və ölkəmizin milli maraqlarına əsaslanır. Ermənistanın yeni rəhbərliyi isə bir-birini təkzib edən ziddiyyətli və məntiqsiz bəyanatlar verməklə bu ölkənin qeyri-konstruktiv mövqeyini nümayiş etdirir. Prezident İlham Əliyev haqlı olaraq qeyd etdi ki, bu gün Ermənistandan səslənən çox ziddiyyətli və bəzən cəfəng fikirlər münaqişənin həllinə yox, onun dərinləşməsinə xidmət göstərir. Dövlətimizin başçısı Azərbaycanın öz prinsipial mövqeyindən geri dönməyəcəyini bildirərək vurğuladı ki, Dağlıq Qarabağ əzəli, tarixi Azərbaycan torpağıdır, beynəlxalq hüquq baxımından da Azərbaycan torpağıdır. Azərbaycanın suverenliyi və ərazi bütövlüyü bərpa edilməlidir.

***- Bahar xanım, bir neçə gün sonra Milli Məclisin payız sessiyası öz işinə başlayacaq. Sessiyanın qanunverici işlər planına hansı məsələlər daxildir?***

- Milli Məclisdə qanunvericilik prosesi məntiqi ardıcıllıqla davam etdirilir. Qanunlar çoxmərhələli müzakirələrdən keçərək qəbul edilir. Ona görə ötən sessiyalarda başladığımız bir sıra qanun layihələri var ki, onlar payız sessiyasının qanunverici işlər planına daxil ediləcək. Üstəlik, payız sessiyası hər zaman büdcə paketinin müzakirə olunması ilə yadda qalır. Bu sessiyada da büdcə paketinə daxil olan qanunları müzakirəyə çıxararaq qəbul edəcəyik.

Bütün komitələrdə artıq qanunverici işlər planına daxil ediləcək layihələrinin müzakirəsinə başlanıb. Ötən sessiyada görülən işlər müzakirə olunur və payız sessiyası üçün tədbirlər planları müəyyənləşdirilir. Artıq komitələrdəki işlər yekunlaşıb. Oktyabırn 1-də isə Milli Məclisin payız sessiyasının açılışı olacaq və biz qanunverici işlər planını müzakirəyə çıxararaq ictimaiyyətə təqdim edəcəyik. İqtisadi, hüquqi və humanitar sahələri əhatə edən qanun layihələri plana daxil edilib.



# Bilgəhdə Beynəlxalq Ahıllar Günü münasibətilə tədbir keçirilib



***Dünən Bakı şəhər Gənclər və İdman Baş İdarəsi, Sabunçu rayon icra hakimiyyəti, YAP Sabunçu rayon təşkilatı və Sabunçu rayon Gənclər və İdman İdarəsinin birgə təşkilatçılığı ilə Beynəlxalq Ahıllar Günü münasibətilə Bilgəh qəsəbəsindəki "Pensiya yaşına çatmış şəxslər üçün sosial xidmət mərkəzi"ndə bayram tədbiri keçirilib.***

Tədbirdə çıxış edən müəssisənin direktoru Qətibə Əsədova rəhbərlik etdiyi qurumun fəaliyyəti və dövlət tərəfindən göstərilən diqqət və qayğıdan danışıb.

Bakı şəhər Gənclər və İdman Baş İdarəsinin rəisi Raqif Abbasov çıxışında bu tarixin beynəlxalq səviyyədə qeyd edilməsinin ahıllara diqqət və qayğının artırılması məqsədi daşıdığını bildirib. R.Abbasov, həmçinin, son illərdə pensiya yaşına çatmış şəxslər üçün Prezident İlham Əliyevin tapşırığı ilə sosial xidmət müəssisəsində əsaslı təmir və yenidənqurma işlərindən, ahıl insanlar üçün yaradılan yaşayış şəraitinin yaxşılaşdırılmasından danışıb.

Görüşdə Sabunçu rayon icra hakimiyyəti başçısının müavini Rəna Fərəcova öz çıxışında qeyd etdi ki, Azərbaycanda yaşlı insanlara istər ailədə, istərsə də dövlətimiz tərəfindən diqqət və qayğı olub və bu gün də mövcuddur. R.Fərəcova, onu da vurğulayıb ki, BMT-nin Baş Məclisi 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qətnamə qəbul edib və həmin qətnamənin prinsiplərinə uyğun olaraq, hər il oktyabrın 1-i bütün dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur.

Millət vəkili Dilarə Cəbrayılova çıxış edərək bildirib ki, Azərbaycanda ahıl insanlara dövlət qayğısı ildən-ilə artır: "Beynəlxalq Ahıllar günü ölkəmizdə 1993-cü ildən qeyd olunur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyev ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşıb, 22 iyun 2001-ci il tarixdə "Ahıllara sosial xidmət haqqında" Qanun qəbul olunub. Həmin Qanuna əsasən, ölkədə 70 yaşına çatan Azərbaycan vətəndaşları, habelə, ölkəmizdə daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur".

YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva çıxışında böyüklərə hörmət və qayğının hər bir insanın mənəvi borcu olduğunu bildirib: "Böyüklərə hörmət Azərbaycan xalqının adət-ənənəsidir. Cəmiyyətdə əxlaqi dəyərlərin təbliğində, məhz böyüklərə hörmət və qayğı hissinin formalaşdırılması vacib məsələlərdəndir. Bu, cəmiyyəti yaşadan ən əsas prinsiplərdən biridir".

M.Abasquliyeva, eyni zamanda, onu da söyləyib ki, YAP həmişə müxtəlif layihələr həyata keçirərək, qayğıya ehtiyacı olan insanlarla görüşlər təşkil edir: "Belə görüşlər bundan sonra da davam edəcək. Çünki Prezident İlham Əliyevin bu gün həyata keçirdiyi siyasətin əsas qayəsi də, ondan ibarətdir ki, dövlətimizin iqtisadi imkanlarından hər bir vətəndaşın rifahı üçün istifadə edilsin".

Müəssisənin sakinləri də çıxış edərək ölkə rəhbərliyinin, xüsusilə, dövlətimizin başçısı İlham Əliyevin və Birinci Xanım Mehriban Əliyevanın onlara göstərdikləri diqqət və qayğıya görə minnətdarlıqlarını bildiriblər.

Qeyd edək ki, ahıllar günü ilə bağlı qocalar evinin sakinləri arasında stolüstü oyunlar keçirilib. Sonda qaliblərə fəxri diplomlar verilib. Eyni zamanda, müəssisənin direktoru Qətibə Əsədovaya çalışdığı dövrdə qazandığı nailiyyətlərə görə təşəkkürnamə təqdim edilib.

Görüş ahılların təşkil etdiyi konsert proqramı ilə davam edib.

***Rəfiqə KAMALQIZI***

# "Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır"

## *YAP Pirallahı rayon təşkilatı idarə heyətinin iclası keçirilib*

***Dünən Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatının idarə heyəti və YAP Pirallahı rayon təşkilatı ərazi ilk partiya təşkilatı sədrlərinin toplantısı keçirildi. İclası giriş sözü ilə açan YAP Pirallahı rayon təşkilatının sədri Hikmət Şikarov Yeni Azərbaycan Partiyasının yarandığı gündən bugünədək keçdiyi şərəfli yoldan danışaraq, müstəqilliyimizin qorunmasında və dövlətçiliyimizin möhkəmlənməsində partiyanın aparıcı siyasi qüvvə olduğunu bildirdi.***





"Yeni Azərbaycan Partiyası xalqın partiyasıdır. Bu gün bu partiya ölkəmizdə həyata keçirilən hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, demokratik inkişaf prosesində yaxından iştirak edir, müstəqil Azərbaycan dövlətinin yüksəlişinə, tərəqqisinə öz töhfələrini əsirgəmir"-deyə Hikmət Şikarov vurğuladı.

YAP Pirallahı rayon təşkilatının sədri çıxışında gündəlikdəki məsələləri diqqətə çatdırdı. İclasda ərazi ilk partiya təşkilatlarında görülmüş işlər haqqında məlumatların dinlənilməsi və yeni təsis olunmuş ərazi ilk partiya təşkilatlarından daxil olmuş müraciətlərə baxılması, o cümlədən, cari məsələlər müzakirə olundu.

İclasda çıxış edən YAP Pirallahı rayon təşkilatı idarə heyətinin üzvü, Pirallahı rayon ağsaqqallar şurasının sədri Fazil Məhəmmədov bildirib ki, rayon təşkilatı 2018-ci ilin I yarısında öz fəaliyyətini partiyanın Nizamnamə və Proqramına, rayon təşkilatının müvafiq Fəaliyyət Planına uyğun qurub: "Rayon təşkilatı daim səylə çalışıb, təşəbbüskarlıq göstərib, Ulu Öndər Heydər Əliyev ideyalarının yaşadılmasında və təbliğində mühüm fəaliyyət həyata keçirib. Ölkə Prezidenti İlham Əliyevin uğurlu və məqsədyönlü siyasi rəhbərliyinin, ölkəmizin davamlı inkişafının və tərəqqisinin cəmiyyətə, insanlara çatdırılması, rayon təşkilatının sıralarının keyfiyyət göstəriciləri baxımından daha da genişlənməsi, partiya üzvləri arasında mövcud əlaqələrin daha da intensivləşdirilməsi və yüksək səviyyəyə çatdırılması istiqamətində yorulmadan çalışıb".

Sonra təşkilati məsələlərə baxıldı, qarşıda duran vəzifələr müzakirə edildi. Həmçinin, partiyanın sıralarına yeni qəbul olunan üzvlər, xüsusilə də, gənclər arasında təbliğati işlərin daha da gücləndirilməsi, respublikamızın ictimai-siyasi həyatında fəal iştirak və s. məsələlər ətrafında da fikir mübadiləsi aparıldı.

İclasın sonunda Yeni Azərbaycan Partiyası Pirallahı rayon təşkilatı tərəfindən partiya sıralarına qəbul olunmuş yeni üzvlərə üzvlük vəsiqələri təqdim olundu.

***Rövşən RƏSULOV***

# Belçikada çoxdan axtarılan erməni cinayətkar Polşada yaxalanıb



Polşanın Şesine şəhərində erməni əsilli cinayətkar yaxalanıb. O, əvvəllər yaşadığı Belçikanın Ostende şəhərində törətdiyi cinayət əməllərinə görə yerli hüquq-mühafizə orqanları tərəfindən axtarışa verilmişdi. Otuz yaşlı erməni cinayətkarın üzərindən saxta Rumıniya, Belçika və Yunanıstan pasportları tapılıb. Polşa polisləri beynəlxalq sistemə daxil olaraq onun kriminal keçmişi ilə də tanış olublar.

Erməni cinayətkar bir neçə qadının zorlanması, silahlı müqavimət və çoxsaylı qarətlərə görə 2015-ci ildə Brügge məhkəməsi tərəfindən 25 il azadlıqdan məhrumetmə cəzası almış, lakin ölkədən qaçmışdı. Cinayətkarın şəkli Avropanın bütün əlaqədar axtarış saytlarında dərc olunmuşdu. Belçika artıq cinayətkarın ekstradisiyası ilə bağlı Polşa hökumətinə müraciət edib.

# 3 OKTYABR 1993-CÜ İL

## XALQI VƏ DÖVLƏTİ QORUYAN TARİX




***1993-cü il oktyabrın 3-də Ümummilli Liderimiz Heydər Əliyev ilk dəfə Azərbaycan Respublikasının Prezidenti seçildi. 1998-ci il oktyabrın 11-də isə keçirilmiş seçkilərdə Ulu Öndər Heydər Əliyev yenidən xalqın etimadını qazandı. Hər iki tarixi il - 1993-cü il seçkiləri Azərbaycan dövlətçiliyinin ciddi sınaq mərhələsi, 1998-ci il isə formalaşan dövlətimizin imtahan ili sayılırdı. Eyni zamanda, bu illər "Xalq-Heydər, Heydər-Xalq" ifadəsi Prezident və xalq birliyinin möhtəşəm formuluna çevrildi. Doğrudur, həmin dövrdə bəzi qüvvələr müdrik siyasətçinin əleyhinə təbliğat aparırdılar. Lakin müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Ümummilli Liderimiz Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin Sədri seçildi və iyulun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.***

### Mehriban Abasquliyeva: "Xalq o zaman haqqa səs verməklə böyük bir gələcəyin təməlini qoymuşdur"

YAP Sabunçu rayon təşkilatının sədri Mehriban Abasquliyeva bildirdi ki, xalq o zaman haqqa səs verməklə böyük bir gələcəyin təməlini qoydu: "1993-cü il müasir Azərbaycanın tarixinə, həm də ən ağır illərdən biri kimi yazılıb. Həmin ildə ölkəmizdə yaranan gərginlik, hakimiyyət böhranı, müstəqillik və dövlətçiliyimizi itirilmək qorxusu, Azərbaycanın xarici düşmənlər tərəfindən hədəfə alınması, bütün fəlakətlər bir-birini izləyirdi. Ölkə təşviş içində idi, xalq vəziyyətdən xilas yolunu və özünün xilaskarını axtarırdı. O zaman nəzərlər yenə də Naxçıvana tuşlandı. Xalq yaxşı bilirdi ki, nicat yolu yalnız bir şəxsdə - Vətənini, millətini canından artıq sevən zəngin dövlətçilik təcrübəsinə malik, xalqının güvəndiyi, inandığı Heydər Əliyevdə idi. O vaxt xalq ciddi təkidlə böyük rəhbəri Bakıya dəvət etdi. Heydər Əliyev xalqının "olum-ölüm" durumunda seyrçi mövqeyində qala bilməzdi və onun çağırışına cavab verdi. 9 iyun 1993-cü ildə Bakıya qayıtdı və xalqını bu sınaqdan üzüağ çıxardı. Heydər Əliyev həmin il iyunun 15-də parlamentin Sədri seçildi. Oktyabrın 3-də isə xalq böyük yekdilliklə öz Liderinin ölkə Prezidentliyinə səs verdi. Prezident kimi and içən Ulu Öndər Heydər Əliyev bildirdi ki, indi Azərbaycan üçün iki vacib məsələ var: dövlət quruculuğu və müstəqilliyin qorunması... Və bütün fəaliyyəti boyu bu müqəddəs andına sadiq qaldı. Əməlləri ilə sözünü gerçəyə çevirdi, müstəqil və qüdrətli bir dövlətin qurucusu oldu... Bu gün müstəqil Azərbaycan dövləti bir neçə sahədə dünya ölkələrinə nümunə olacaq göstəricilər əldə etmişdir. Regionun ən qüdrətli ölkəsinə çevrilmiş Azərbaycanın razılığı olmadan bölgədə heç bir iqtisadi layihə həyata keçirilmir. Azərbaycan Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayır... Bütün bunların təməli 1993-cü ildə, 3 oktyabr prezident seçkilərində qoyulmuşdur. Xalq o zaman haqqa səs verməklə böyük bir gələcəyin təməlini qoymuşdur. Onu da qeyd edim ki, 1993-cü il 3 oktyabr seçkilərinin nəticələrini biz bu gün ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında görürük. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev respublikamızı iqtisadi inkişaf baxımından dünyanın aparıcı dövlətlərinin sırasına qaldırıb. Bütün bunlar isə 1993-cü il 3 oktyabr prezident seçkilərinin nəticəsi kimi qiymətləndirilir".

### Eldar İbrahimov: "Xalq böyük səs çoxluğu ilə öz böyük oğlunu, dahi siyasətçi Heydər Əliyevi Prezident seçməklə bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu"

Milli Məclisin Aqrar Siyasət Komitəsinin sədri Eldar İbrahimov "Səs" qəzetinə bu tarixi hadisə ilə bağlı münasibət bildirərkən, 1993-cü il 3 oktyabr tarixini müstəqil Azərbaycanın xilas günü olduğunu söylədi: "Xalq o zaman Naxçıvan Muxtar Respublikasına rəhbərlik edən Ulu Öndər Heydər Əliyevin Bakıya dəvət edilməsini, ölkənin siyasi hakimiyyətinə kömək etməsini məqsədəuyğun saydı. Hər zaman xalqın yanında olan və xalqın arzu-istəklərinin reallaşdırılması üçün öz canını belə əsirgəməyən Ulu Öndər muxtar respublikadan paytaxta gəlməklə xalqın ölməkdə olan ümidlərini özünə qaytardı. 1993-cü il oktyabrın 3-nə təyin edilmiş prezident seçkiləri Azərbaycan xalqı üçün mühüm tarixi hadisə, müstəqil Azərbaycan dövləti üçün isə qurtuluşa gedən yolun ilk pilləsi idi. Xalq böyük səs çoxluğu ilə öz böyük oğlunu, dahi siyasətçi Heydər Əliyevi Prezident seçdi və həmin seçimlə də bugünkü qüdrətli Azərbaycan dövlətinin təməli qoyuldu. 1993-cü il oktyabrın 3-də keçirilmiş prezident seçkisindən üç ay öncə - iyunun 15-də xalq öz Ümummilli Liderini parlament Sədri seçdi, həmin addımla da vətəndaş müharibəsinin qarşısı alındı. Ən başlıcası, ölkədə daxili sabitlik yarandı, insanların bir-birinə və dövlətə olan inamı bərpa edildi. Daha sonra isə ölkəmizə beynəlxalq aləmdə yeni nüfuz qazandıran qanunların qəbul edilməsinə, köklü islahatlara start verildi. Nəticədə, Heydər Əliyevin Birinci Prezidentliyi dövründə Azərbaycana 10 milyardlarla dollar gəlir gətirəcək "Əsrin müqaviləsi" imzalandı, bütün beynəlxalq təşkilatlara inteqrasiyamız təmin edildi, dünyanın aparıcı dövlətləri ilə münasibətlərimiz isə tərəfdaşlıq və strateji müttəfiqlik səviyyəsinə çatdırıldı. Müstəqillik dövründə ilk dəfə iqtisadi dirçəlişə nail olmağımız da, məhz Ulu Öndər Heydər Əliyevin Birinci Prezidentliyi dövrünə - 1996-cı ilə təsadüf edirdi. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin ədalətli şəkildə, yəni Azərbaycanın ərazi bütövlüyünün bərpa edilməsi şərti ilə həllinin zəruriliyi də beynəlxalq təşkilatlar səviyyəsində ilk dəfə 1996-cı ildə etiraf edildi. Ölkədə hüquqi islahatlara da həmin dövrdən başlandı, 1995-ci ildə müstəqil dövlətimizin ilk konstitusiyası qəbul edilərək, yeni parlament seçildi. Ümumiyyətlə, 1993-cü ilin oktyabrından 1998-ci ilin oktyabrına qədər Azərbaycanda həyata keçirilən tədbirlər, belə deməyə əsas verirdi ki, oktyabrın 11-də Ulu Öndər Heydər Əliyevin qələbəsi şəksizdir. Proqnozlar özünü doğrultdu və Ümummilli Liderimiz Heydər Əliyev 76,1 faiz səs toplayaraq, yenidən Azərbaycanın Prezidenti seçildi.

### Tahir Süleymanov: "Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini və bugününü özünə qaytardı"

Milli Məclisin deputatı Tahir Süleymanov 1993-cü il 3 oktyabr tarixi hadisəni xalqımızın taleyində dönüş anı kimi dəyərləndirdi: "Məhz 19 il bundan öncə, tarixin bu günü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə qayıdışı ilə müstəqil dövlətçiliyimiz parçalanmaq və məhv olmaq təhlü-



kəsindən, iqtisadi tənəzzüldən və beynəlxalq təcriddən xilas edildi. Azərbaycanın milli dövlətçilik ənənələrinin bərpa edilməsi və milli dövlətçiliyin möhkəmləndirilməsi istiqamətində atılan addımların qurtuluş məfkurəsinə istinad etməsi heç də təsadüfi deyil. Bildiyiniz kimi, müstəqilliyimizin ilk illəri Azərbaycan xalqı üçün çox ağır dövr olub. Tale elə gətirib ki, 1991-1993-cü illər, müstəqilliyimizin ilk illərinə təsadüf etsə də, ölkəmizin müasir tarixində hərc-mərclik, özbaşınalıq, avantürist eksperimentlər dövrü kimi xatırlanır. Bütün bunlar isə həmin dövrlərdə yeni yaradılmış müstəqil dövlətə liderlik xüsusiyyətlərinə malik olmayan, siyasi hadisələrə qiymət vermək, gələcəyi görmək imkanlarından məhrum olan, adi vəziyyətdən belə çıxış yolu tapmağa qadir olmayan şəxslərin rəhbərlik etməsi ilə əlaqədar baş verirdi. Belə bir məqamda yalnız bir çıxış yolu var idi - görkəmli siyasi və dövlət xadimi, Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin Sədri, Yeni Azərbaycan Partiyasının Sədri Heydər Əliyevin Bakıya dəvət olunmasından ibarət idi. Azərbaycan dövlətçiliyinin gələcəyindən narahatlıq keçirən ziyalılar Ulu Öndər Heydər Əliyevə müraciət etdilər. Azərbaycan ziyalıları, o cümlədən, sadə insanlar Ümummilli Liderə müraciətlər edirdilər, ölkədə yaranan siyasi gərginliyin aradan qaldırılması üçün Heydər Əliyevin hakimiyyətə gəlməyinin vacibliyini qeyd edirdilər. Ulu Öndər Heydər Əliyev bu müraciətləri nəzərə alaraq, 1993-cü il iyunun 9-da Bakıya döndü. Bu dönüş xalqın istəyi, tarixin zərurəti idi və bu QAYIDIŞLA insanların qəlbinə bir inam və rahatlıq toxumu səpildi, ölkənin xilas olduğuna inamını artırdı. Eyni zamanda, Ulu Öndər Heydər Əliyevin ikinci dəfə hakimiyyətə qayıdışı Azərbaycan dövlətini, müstəqilliyini, xalqımızın qürurunu, tarixini və bu gününü özünə qaytardı.



1993-cü il 3 oktyabr seçkilərinin nəticələrini biz bu gün ölkəmizin ictimai-siyasi həyatında və sosial-iqtisadi inkişafında görürük. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyev respublikamızı iqtisadi inkişaf baxımından dünyanın aparıcı dövlətlərinin sırasına qaldırıb. Bu gün Azərbaycan yoxsulluğun və işsizliyin azaldılmasına, adambaşına düşən ümumi daxili məhsul istehsalının artırılmasına, ordu quruculuğunun sürətləndirilməsinə, ölkənin beynəlxalq aləmə inteqrasiyasına və bir çox göstəricilərə görə dünyanın öncül dövlətləri sırasındadır. Bütün bunlar isə, 1993-cü il 3 oktyabr prezident seçkilərinin nəticəsi kimi qiymətləndirilir.

## Millət vəkili Rauf Əliyev: "1993-cü il 3 oktyabr tarixi müstəqil Azərbaycanın xilas günüdür"

Millət vəkili Rauf Əliyev 1993-cü il 3 oktyabr tarixini müstəqil Azərbaycanın xilas günü olduğunu söylədi: "Ümummilli Lider Heydər Əliyev 1993-cü il iyun hadisələri zamanı Azərbaycan xalqının təkidli tələbilə ölkəmizə ali siyasi hakimiyyətə qayıtdı. Bu, TARİXİ QAYIDIŞ idi. Ümummilli Liderin Qayıdışı ilə Azərbaycanda vətəndaş müharibəsinin qarşısı alındı. Ölkədə ictimai-siyasi sabitlik yaradılması üçün əlverişli mühit formalaşdı. Təbii ki, Ulu Öndərin Qayıdışı xalqın böyük dəstəyi ilə Prezident seçilməsi və ölkənin idarəçiliyinin həyata keçirilməsi prosesi davam etdi. 1993-cü il oktyabr ayının 3-də Azərbaycanda prezident seçkiləri keçirildi. Azad, demokratik, ədalətli, alternativ şəkildə keçirilən seçkilərdə Azərbaycan xalqının böyük və mütləq əksəriyyəti Ulu Öndərin Qayıdışına, siyasətinə səs verdi. Bununla da, Ulu Öndər Azərbaycanı dağılmaqdan, fəlakətdən xilas etdi, müstəqilliyimizin itirilməsi təhlükəsini aradan qaldırdı. Azərbaycanı sabit, inkişaf edən ölkələr sırasına gətirmək üçün böyük, güclü imkanlar yaratdı. 1993-cü il oktyabrın 3-də xalqın dəstəyi ilə Prezident seçilən Ulu Öndər 1998-ci ildə ikinci dəfə Prezident oldu. Ulu Öndərin böyük siyasəti Azərbaycanı bölgənin lider dövlətinə, aparıcı ölkəsinə çevirdi. Ən başlıcası, ölkədə daxili sabitlik yarandı, insanların bir-birinə və dövlətə olan inamı bərpa edildi. Daha sonra isə ölkəmizə beynəlxalq aləmdə yeni nüfuz qazandıran qanunların qəbul edilməsinə, köklü islahatlara start verildi. Nəticədə, Heydər Əliyevin Birinci Prezidentliyi dövründə Azərbaycana 10 milyardlarla dollar gəlir gətirəcək "Əsrin müqaviləsi" imzalandı, bütün beynəlxalq təşkilatlara inteqrasiyamız təmin edildi, dünyanın aparıcı dövlətləri ilə münasibətlərimiz isə tərəfdaşlıq və strateji müttəfiqlik səviyyəsinə çatdırıldı. Ümumiyyətlə, 1993-cü ilin oktyabrından 1998-ci ilin oktyabrına qədər Azərbaycanda həyata keçirilən tədbirlər, belə deməyə əsas verirdi ki, oktyabrın 11-də Ulu Öndər Heydər Əliyevin qələbəsi şəksizdir. Proqnozlar özünü doğrultdu və Ümummilli Liderimiz Heydər Əliyev 76,1 faiz səs toplayaraq, yenidən Azərbaycanın Prezidenti seçildi. Ulu Öndərdən başlanılan BÖYÜK YOL bu gün ölkə Prezidenti Cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bu yol Azərbaycanımız üçün, müstəqil dövlətimiz üçün daimi, əbədi yoldur. Ulu Öndər Heydər Əliyev Prezident seçildikdən sonra Azərbaycanın inkişafının bütün istiqamətləri ilə bağlı dəyərli, konseptual Proqram elan etdi. Onun bu Proqramı ideoloji, iqtisadi əsaslarımızı müəyyən etdi, ölkənin müstəqilliyini və dönməzliyini təmin edə bildi.

...Bəli, Ümummilli Lider Heydər Əliyevin həyatı və gərgin fəaliyyəti bahasına dünyaya Günəş kimi doğan Azərbaycan indi beynəlxalq arenada tarixi ənənələrlə müasirliyin ən bariz sintezidir. Bu sintez Heydər Əliyev müdrikliyi və xalqın birliyindən yaranıb...

**R.KAMALQIZI**

# Ölkəmizdə əhalinin bütün təbəqələri üçün bərabər imkanlar yaradılıb

***Azərbaycanda əhalinin sosial rifahının yaxşılaşdırılması dövlət siyasətinin mühüm istiqamətlərindəndir. Ölkəmizdə dövlətin iqtisadi siyasətinin sosialyönümlü olması, ölkə vətəndaşlarının sosial müdafiəsinin gücləndirilməsinə diqqətin və insan amilinə verilən yüksək dəyərin nümunəsidir. Dövlətin sosial siyasəti insanların tələbatını və maraqlarını ödəyərək, hər kəsdə fəal həyat mövqeyi formalaşdırır. Ayrı-ayrı vətəndaşlara, sosial qruplara yardım göstərilir. Müasir Azərbaycan dövlətinin banisi Ulu Öndər Heydər Əliyevin vaxtilə əsasını qoyduğu sosial siyasət, məhz bu və ya digər mütərəqqi konsepsiyalara əsaslanır. Ümummilli Lider Heydər Əliyev siyasi hakimiyyətə qayıdışı ilə yeni sosial siyasəti formalaşdırdı və bazar münasibətləri əsasında formalaşan sosialyönümlü milli iqtisadiyyatın qurulmasını əsas strategiya kimi müəyyənləşdirdi.***



"Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və s. qanunlar qəbul edildi, Şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində fərman və sərəncamlar imzalandı. Aztəminatlı ailələrə, müharibə veteranlarına və əlillərinə mənzillərin və avtomobillərin verilməsi, əlillərin reabilitasiyası məsələləri də Ulu Öndər Heydər Əliyevin hakimiyyətə dönüşündən sonra dövlətin iqtisadi imkanlarına uyğun olaraq, vüsət almağa başladı.

Müasir dövrümüzdə Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Azərbaycan Prezidenti Cənab İlham Əliyevin siyasəti və gərgin əməyi sayəsində ölkəmizdə, sözün əsl mənasında, sıçrayışlı sosial-iqtisadi inkişafa nail olunub. Belə ki, Ulu Öndər Heydər Əliyevin düzgün müəyyənləşdirdiyi siyasətin Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi nəticəsində, Azərbaycan bir-birindən əhəmiyyətli uğurlara imza atıb və dünyanın seçilən dövlətləri sırasında yer tutub.

## SOSİAL XİDMƏT SİSTEMİ CƏMİYYƏTİN EHTİYACLARINA UYĞUN QURULUR

Ölkəmizdə aparılan siyasətin əsasında, məhz insan amili dayanır. Ölkədə mövcud olan və yaradılan bütün yaşayış və xidmət infrastrukturu hər bir vətəndaşa xidmət edir. Prezident İlham Əliyevin Sərəncamı ilə imzalanmış "Azərbaycan Respublikasının məşğulluq strategiyası (2006-2015-ci illər)", "Azərbaycan Respublikası regionlarının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı", "2008-2015-ci illərdə Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və davamlı inkişaf Dövlət Proqramı" və s. əhalinin sosial rifahının yüksəlməsinə, gəlir əldə etmək imkanlarının genişləndirilməsinə, orta aylıq əməkhaqqının ilbəil yüksəlməsinə, nəticə etibarilə əhalinin həyat səviyyəsinin mütəmadi yaxşılaşmasına səbəb olmuşdur.

Təbii ki, dövlətin fiziki, ruhi cəhətdən müəyyən məhrumiyyətlərə uğramış adamlara qayğısı da ön plandadır. Bu baxımdan, belə şəxslərin hərtərəfli dövlət qayğısı ilə təmin olunması istiqamətində mühüm tədbirlər həyata keçirilib, onların maddi təminatı ildən-ilə gücləndirilir. Sosial cəhətdən qayğıya ehtiyacı olan insanların həyat səviyyəsinin yaxşılaşdırılması istiqamətində, görülən işlərdən biri olaraq, sosial xidmətlər sahəsində kifayət qədər nailiyyətlər əldə olunub. Sosial xidmətlər ahıllara, sağlamlıq imkanları məhdud, baxımsız və sosial təhlükəli vəziyyətdə olan uşaqlara, əlilliyi olan şəxslərə, məişət zorakılığının qurbanlarına, penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərə və digər çətin həyat şəraitində olan vətəndaşlara göstərilir. "Sosial xidmət haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin Fərmanı ilə çətin həyat şəraitində yaşayan şəxsin (ailənin) sosial problemlərinin aradan qaldırılması istiqamətində kompleks tədbirlər həyata keçirilməyə başlandı. Bu sənəd vətəndaşların həyat səviyyəsini ağırlaşdıran, sosial-psixoloji vəziyyətini çətinləşdirən, cəmiyyətdən təcrid olunmasına gətirib çıxaran halların qarşısını almaqda böyük əhəmiyyət daşıyır.

Müharibə əlillərinin və şəhid ailələrinin mənzil-məişət şəraitlərinin yaxşılaşdırılması istiqamətində görülən işləri də xüsusi vurğulamaq vacibdir. Azərbaycanda müharibə əlillərinin və şəhid ailələrinin mənzillə təminatı sahəsində mühüm tədbirlər davam etdirilir. Ölkənin müxtəlif regionlarında dövlət vəsaiti hesabına çoxmənzilli və fərdi yaşayış evləri inşa edilərək mənzilə ehtiyac duyan əlillərin istifadəsinə verilir. Müharibə əlilinə avtomobillər verilib. Bu təbəqədən olan vətəndaşlar üçün Azərbaycanın müxtəlif rayonlarında mənzillərin inşası davam etdirilir. Bütün bunlar Prezident İlham Əliyevin əlilliyi olan şəxslərin sosial təminatının daim yaxşılaşdırılmasına göstərdiyi böyük diqqət və qayğının bariz nümunəsidir.

Əlilliyi olan şəxslərin maddi təminatının gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biri olduğundan respublikada əlilliyi olan şəxslərin ölkə daxilində müalicəsi, onlar üçün respublika səviyyəli yaradıcılıq müsabiqələrinin təşkili və s. ardıcıl olaraq, həyata keçirilir. Son illərdə ölkədə bərpa-müalicə şəbəkəsi daha da genişləndirilib. Bakı Protez-Ortopedik Bərpa Mərkəzi və onun filialları tərəfindən əlilliyi olan şəxslər protez-ortopedik məmulatlarla, əlil arabaları, eşitmə aparatları və digər reabilitasiya vasitələri ilə, davamlı olaraq, təmin edilirlər. Hazırda Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində olmaqla ölkənin paytaxtında və bölgələrində bərpa-müalicə müəssisəsi fəaliyyət göstərir. Həmin mərkəzlərdə hər il minlərlə əlil və sağlamlıq imkanları məhdud uşaq dövlət hesabına tibbi-sosial reabilitasiya xidməti ilə, eləcə də, protez-ortopedik məmulatlar və reabilitasiya vasitələri ilə təmin olunurlar. "Sosial xidmət haqqında" Qanuna əsasən, əlilliyi olan şəxslər pulsuz ixtisaslı tibbi xidmətdən istifadə etmək, güzəştli şərtlərlə apteklərdən dərman almaq, sanator-kurort müalicəsi ilə təmin olunmaq hüququna malikdirlər.

## SOSİAL XİDMƏT ÇƏRÇİVƏSİNDƏ YENİ REABİLİTASİYA MƏRKƏZLƏRİ

Sağlamlıq imkanları məhdud uşaqların dövlət himayəsində yaşadığı Şaqan 3 saylı və Saray 7 saylı internat evləri Heydər Əliyev Fondunun "Uşaq evləri və internat məktəblərinin inkişafı" Proqramı çərçivəsində yenidən qurulub. Müasir tələblərə uyğun şəraitin yaradıldığı bu müəssisələr uşaqların lazımi tibbi və reabilitasiya xidmətləri ilə təmin olunması üçün tam təchiz olunub.

Yevlax şəhərində məhdud fiziki imkanlı insanlar üçün Regional İnformasiya Mərkəzi açılıb. Mərkəz Heydər Əliyev Fondunun növbəti humanist layihələrindən biridir. Fondun dəstəyi ilə əlilliyi olan şəxslərə İKT-dən istifadə imkanlarının yaradılması üçün respublikamızın artıq bir neçə bölgəsində Regional İnformasiya Mərkəzləri yaradılıb. Bu mərkəzlərdə əlilliyi olan şəxslərə Brayl əlifbası ilə nəşr olunmuş kitablar təqdim olunur, həmçinin, nitq və eşitmə qabiliyyəti məhdud olan şəxslər üçün filmlərin nümayiş olunduğu kinozallar, əqli cəhətdən zəif insanlar üçün zehni inkişaf etdirən kompüter oyunları otağı fəaliyyət göstərir. Ramana qəsəbəsində Sağlamlıq İmkanları Məhdud Gənclərin Peşə Reabilitasiya Mərkəzi əlilliyi olan şəxslərin məşğulluq imkanlarının genişləndirilməsi istiqamətində atılan mühüm addımlardan biridir. Həmin mərkəz öz profilinə görə, birbaşa olaraq, əlilliyi olan şəxslərin peşə hazırlığına xidmət edən ilk mərkəzdir. Burada əlilliyi olan gənclər müxtəlif istiqamətlərdə peşə reabilitasiyası kurslarına cəlb olunurlar. Yeni peşələrə yiyələndikdən sonra onların həmin peşələr üzrə məşğulluğu da təmin edilir.

Son 15 ildə Prezident İlham Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycan böyük inkişaf yolu keçmiş, insanların sosial yüksəlişi təmin olunmuşdur. Bazar iqtisadiyyatı şəraitində sosial ədalət prinsipinin gücləndirilməsi, mütərəqqi beynəlxalq təcrübə əsasında əhalinin bütün təbəqələri üçün bərabər və əlçatan sosial təminat mexanizminin yaradılıb və təkmilləşdirilib. Bütün bunlar Azərbaycan cəmiyyətində fiziki imkanları məhdud olan insanlara münasibətdir.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Ölkəmizdə ahıllar dövlət qayğısı ilə əhatə olunub



***Bütün dünyada olduğu kimi, ölkəmizdə də Beynəlxalq Ahıllar Günü təntənəli şəkildə qeyd olunur. BMT-nin Baş Məclisinin 1992-ci ildə ahılların müdafiəsi ilə bağlı qəbul etdiyi qətnamənin prinsiplərinə uyğun olaraq, hər il oktyabrın 1-i bütün dünyada Beynəlxalq Ahıllar Günü kimi qeyd olunur. Bu günün beynəlxalq səviyyədə qeyd olunması isə ahıllara diqqət və qayğının artırılması məqsədi daşıyır.***

Azərbaycanda Beynəlxalq Ahıllar Günü 1993-cü ildən qeyd olunur. Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin ahıl insanlara, onların problemlərinə hər zaman böyük diqqət və qayğı ilə yanaşmasının nəticəsi olaraq, 22 iyun 2001-ci il tarixdə "Ahıllara sosial xidmət haqqında" Qanun qəbul olunub. Həmin Qanuna əsasən, ölkədə 70 yaşına çatan Azərbaycan vətəndaşları, habelə, ölkəmizdə daimi yaşayan əcnəbi və vətəndaşlığı olmayan şəxslər ahıl hesab olunur. Hazırda ölkəmizdə 400 minə yaxın ahıl var.

Ahılların hərtərəfli dövlət qayğısı ilə təmin olunması, onların maddi və mənəvi tələbatlarının ödənilməsi Ümummilli Lider Heydər Əliyevin sosial siyasət kursunun mühüm tərkib hissəsi olmuşdur. Milli və bəşəri dəyərlərə söykənən bu siyasət Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən layiqli səviyyədə davam və inkişaf etdirilməkdədir.

Dövlət tərəfindən sosial təminat sahəsinə aid qanunların, fərman və sərəncamların qəbulu zamanı ahılların maraqları, sosial statusu nəzərə alınıb. Belə ki, "Ahıl vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi üzrə Dövlət Proqramı"na əsasən, onların sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində davamlı islahatlar həyata keçirilib. Həmin islahatlar ölkəmizdə sosial müdafiə sisteminin beynəlxalq standartlar səviyyəsində yenidən qurulmasına imkan verib.

Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən imzalanan 2008-ci il 30 dekabr tarixli Sərəncamı ilə təsdiq olunan "2009-2015-ci illərdə sığorta-pensiya sisteminin inkişafına dair Dövlət Proqramı"nın uğurla icrası ilə sığorta-pensiya sisteminin davamlı inkişafına nail olunub. Ölkəmizdə tətbiq olunan yeni sığorta-pensiya sistemində pensiyaların artırılması, bazar iqtisadiyyatının tələblərinə uyğun şəkildə dəyişdirilməsi mövcud maliyyə imkanlarının bütün pensiyaçılar arasında ədalətli bölgüsünə imkan verib.

Ötən illər ərizində Azərbaycan Prezidenti İlham Əliyev yaşa görə əmək pensiyasının baza hissəsinin artırılması, sığorta hissəsinin artırılması və s. bağlı sərəncamlar imzalayıb. Bu gün tənha ahıl vətəndaşlara ictimai əsaslarla evlərində sosial xidmətlər göstərilir. Bu tədbirlər dövlət səviyyəsində həyata keçirilir. Dövlət başçısının bu təbəqədən olan insanlara diqqət və qayğısının növbəti ifadəsi kimi, Bilgəhdə müharibə və əmək əlilləri üçün pansionatının (Qocalar Evi) beşmərtəbəli, 170 yerlik ikinci korpusu inşa olunaraq, istifadəyə verilib. Burada beynəlxalq təcrübədən irəli gələn meyarlara uyğun olaraq, tənha ahıl və əlillərin keyfiyyətli tibbi-sosial xidmətlə təmin edilməsi, asudə vaxtlarının mənalı təşkili üçün müasir tələblərə uyğun şərait yaradılıb. Dövlət qarşısında xüsusi xidmətləri olmuş ahılların bir qismi əmək pensiyaları ilə yanaşı, Azərbaycan Prezidentinin təqaüdü ilə də təmin olunurlar. Ahıl şəxslərin dövlət hesabına bərpa-müalicə xidməti, reabilitasiya avadanlıqları, sanatoriya-kurort yollayışları ilə təminatı sahəsində də işlər ilbəil güclənir.

Ölkəmizdə əlil, tənha və ahıllara xidmət göstərən müəssisələrin sakinləri də tam dövlət qayğısı ilə əhatə olunublar. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın ahıllara qayğısı da böyük rəğbətlə qarşılanır. Azərbaycanın Birinci Xanımı Mehriban xanım Əliyevanın təşəbbüsü ilə fondda ahıllarla, müharibə veteranları ilə görüşlər keçirilir və onların sağlamlığı diqqətdə saxlanılır. Ahıllar günündə də bu insanlar üçün müxtəlif tədbirlər təşkil olunur. Qocalar səhiyyə ocaqlarında müayinə edilir, onlar üçün konsertlər və bayram şənlikləri keçirilir.

Bütün görülən işlər, həyata keçirilən tədbirlər Azərbaycan dövlətinin artan qüdrətinin və onun hər bir vətəndaşına olan qayğısının göstəricisidir.

**ZÜMRÜD BAYRAMOVA**

# Elman Məmmədov: "ADEX-2018" sərgisi ordumuzun gücündən xəbər verir

Bakıda keçirilən "ADEX-2018" Beynəlxalq Müdafiə sərgisinin ölkəmiz üçün böyük əhəmiyyəti var. Azərbaycanın artıq 3-cü dəfədir mühüm sərgiyə ev sahibliyi etməsi, ölkəmizin mühüm hərbi potensiala malik olduğunu göstərir". Bu fikirləri SİA-ya açıqlamasında Milli Məclisin deputatı Elman Məmmədov deyib. 90-cı illərin əvvəllərini xatırladan deputat bildirib ki, o dövrdə Azərbaycanın istənilən silaha mərmisi belə yox idi və ölkəmiz bunu əldə etmək üçün müxtəlif dövlətlərə müraciət etmək məcburiyyətində idi: "Bunun üçün küllü miqdarda pul xərclənirdi. Bu gün Azərbaycan dünyada mövcud olan 200-dən çox dövlətlərin içərisində Müdafiə Sənayesi Nazirliyi olan azsaylı ölkələrdən biridir. Bu, Azərbaycan Prezidentinin həyata keçirdiyi çox uğurlu siyasətin nəticəsidir".



E.Məmmədov söyləyib ki, bu gün Azərbaycan ordusunu özünün istehsal etdiyi yüksək səviyyəli silah-sursatla təmin edir: "Düzdür, Azərbaycan başqa dövlətlərdən də daha müasir, güclü silahlar alır. Lakin ordumuza lazım olan hərbi geyimi, silah-sursatı, əsgərlərimizə lazım olan bütün avadanlıqları özümüz istehsal edirik. Bu da ölkəmizin, ordumuzun gücündən xəbər verir". Deputat qeyd edib ki, Azərbaycanda fərqli olaraq Ermənistan əsgərinə lazım olan əşyaların hamısını xaricdən alır və çox zaman da ala bilmir: " Bu da ordumuzun düşmən ordusu üzərində çox böyük gücə malik olduğunu göstərir". ADEX sərgilərinin ölkə iqtisadiyyatı üçün mühüm əhəmiyyət kəsb etdiyini dilə gətirən E.Məmmədov vurğulayıb ki, sərgi zamanı Azərbaycan silah-sursat satmaqla gəlir əldə edir: "Ümumiyyətlə, Azərbaycanın silah istehsal etməsi, bizi düşmənimizdən fərqləndirən əsas üstünlüklərdən biridir. Bu cür sərgilərin keçirilməsi düşmənlərimizin narahatlığına səbəb olur. Çünki, onlar anlayır ki, sərgidə nümayiş olunan güclü silahlar nə vaxtsa onlara tuşlana bilər. Bütün bunlar Azərbaycanın yekun qələbəyə, yəni işğal altında olan torpaqlarımızın azad olunmasına və ərazi bütövlüyümüzün təmininə aparır".

# Daşınmaz əmlakın dövlət reyestri ilə bağlı ödənişin miqdarı təsdiq edilib

Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı təsdiq edilib. SİA-nın xəbərinə görə, bu barədə qərar Baş nazir Novruz Məmmədov tərəfindən imzalanıb.

"Bələdiyyələrin yazılı və ya elektron sorğuları əsasında daşınmaz əmlakın dövlət reyestrinin məlumatlarının verilməsi qaydası və bununla bağlı ödənişin miqdarı" təsdiq edilsin (əlavə olunur)", - deyə qərarda bildirilir.

# "Azerspace-2" peyki beynəlxalq əməkdaşlığın güclənməsinə ciddi təsir göstərəcək"



"Azerspace-2" peykinin orbitə buraxılması Azərbaycanın imici baxımından, peyk ailəsində öz yerini möhkəmlətməsi baxımından əhəmiyyətlidir. Peyk həmçinin milli kosmik infrastrukturun inkişafı baxımından digər sahələrin, bu sahə ilə əlaqəli kadrların hazırlanması, elmin və innovasiyaların inkişafına, beynəlxalq əməkdaşlığın güclənməsinə ciddi təsir göstərəcək". Bu fikirləri SİA-ya açıqlamasında Azərbaycan İnternet Forumunun prezidenti Osman Gündüz deyib. Yeni telekommunikasiya peykinin orbitə buraxılmasının ölkəmizdə kosmik sənayenin inkişafı və dünyada mövqelərini möhkəmləndirməsi baxımından vacibliyini qeyd edən O. Gündüz söyləyib ki, Azərbaycan indiyə qədər orbitə çıxardığı peyklər vasitəsilə rabitə xidmətləri təklif edir, eləcə də böyük şirkətlərə, müxtəlif qurumlara, o cümlədən beynəlxalq təşkilatlara yerin səthi, araşdırmalar, geodeziya ilə bağlı müxtəlif əhəmiyyətli informasiyaları sata bilir, bu istiqamətdə əməkdaşlıq qura bilir.

Onun sözlərinə görə, orbitə çıxarılan peyklər qeyri-neft sektorunun inkişafı baxımından da mühümdür: "Hesab edirəm ki, gələcəkdə elmi və biznes yönümlü, yerin səthinin öyrənilməsi, eləcə də kəşfiyyat yönümlü peyklər istiqamətində işlər aparılacaq". Xatırladaq ki, Azərbaycanın üçüncü peyki olan "Azerspace-2" telekommunikasiya peyki sentyabrın 26-da Fransız Qvianasında yerləşən kosmodromdan - Qviana Kosmik Mərkəzindən orbitə buraxılıb.

# Siyasiləşmiş QHT-lər üçün Əli Kərimli təhqir obyektinə çevrilib

***Son vaxtlar siyasiləşmiş QHT-lərdən olan Xədicə İsmayıl, Emin Hüseynov, Leyla və Arif Yunuslar və digərləri dağıdıcı müxalifət partiya sədrlərini sıxışdırırlar. İddia olunur ki, qarşıdurmalar nəticə etibarı ilə siyasiləşmiş QHT-lərlə müxalifət partiya sədrləri arasında gərgin qarşıdurmaya və ziddiyyətlərə gətirib çıxaracaq.***

**Azərbaycan Gənc Alim, Aspirant və Magistrlər Cəmiyyətinin sədri, fəlsəfə doktoru İlqar Orucov: "Bu qüvvələr mahiyyətcə eyni insanlardan ibarətdir"**



Azərbaycan ictimai-siyasi mühitində olan insanlar bir-birini yaxşı tanıyırlar. İstər radikal müxalifət adlandırılan kəsim, istər onlarla bir düşərgədə olan siyasiləşmiş qeyri-hökumət təşkilatları, onların fəaliyyətləri, hara, kimə və nəyə qulluq etmələri, fəaliyyətlərinin mahiyyəti hamımıza məlumdur. Eyni düşərgədə olan bu qüvvələrin gah birləşmələrini, gah ayrılmalarını da görmüşük və bundan sonra da görəcəyik. Bu insanları birləşdirən və qarşı-qarşıya gətirən bir amil var. Bunun adı, qısa olaraq, siyasət meydanında apardıqları alverdir. Son dövrlərdə də onlar arasındakı soyuqluğun, gərgin qarşıdurmaların kökündə bu dayanır. Bilirik ki, bu qüvvələr mahiyyətcə eyni insanlardan ibarətdir. Xaricdən himayə olunan və maliyyələşən bu qüvvələri düşündürən məqam yalnız pul əldə etmək, ölkədə insan hüquqlarının pozulduğunu, söz azadlığının, demokratiyanın boğulduğunu iddia etmək, insanların guya siyasi dünyagörüşünə görə təqib olunmasını ifadə etmək və bununla da, külli miqdarda vəsait əldə etməkdən ibarətdir. Bu maliyyələrin əsasında Azərbaycanla bağlı yanlış, qərəzli məlumatlar, hesabatlar hazırlayaraq himayədarlarına və beynəlxalq qurumlara göndərirlər. Beləliklə, onların hesabatlarına "əsaslanan", əslində, reketçiliklə məşğul olan həmin beynəlxalq qurumlar ölkəmizə qarşı bu hesabatları təzyiq vasitəsi kimi istifadə edirlər. Həmçinin, istər siyasiləşmiş QHT-lərin, istər radikal siyasi partiyaların maraqlarının toqquşduğu digər bir meydan "mühacir" biznesidir. Avam insanlara, hər şeyini satdıraraq" Avropada cənnət vəd edən bu dələduzlar miqrant biznesdən də böyük pullar əldə edirlər. Fərqində də deyillər ki, pulla satdıqları saxta arayışlarla nə qədər aldadılmış insan Avropa ölkələrində kamplarda əziyyət çəkirlər. Bu qüvvələr arasında "mühacir" biznesində olan pulları bölmək üstündə də toqquşmalar hər zaman olub. Son günlərdə bu tipli siyasiləşmiş QHT-lərlə radikal siyasi partiyalar arasında kəskinləşmiş münasibətlərdə aldıqları pulları bölmək üstündə mübarizə adlandırmaq daha düzgün olar. İstər Xədicə İsmayıl, istər Leyla və Arif Yunuslar və digərlərinin ayrılan pullara daha böyük iddiaları fonunda dostluq etdikləri və eyni mətbəxdə çalışdıqları partiya funksionerləri ilə toqquşmalarının gələcəkdə daha gərgin olacağını və dərinləşəcəyini düşünürəm. Hesab edirəm ki, buna onları idarə edən xarici himayədarları da imkan verməyəcəklər.

**Prezident Yanında QHT-lərə Dövlət Dəstəyi Şurasının üzvü, SİM İB-nin sədri Anar Xəlilov: "Siyasiləşmiş QHT-lər dağıdıcı müxalifət partiyaları üçün daim peyk rolunu oynayıblar"**



- Siyasiləşmiş QHT-lər dağıdıcı müxalifət partiyaları üçün daim peyk rolunu oynayıblar. Bu partiyalar da bundan istifadə edərək, xarici himayədarlarından maliyyə dəstəyi əldə edirlər. Məhz bunları bir-birinə bağlayan maliyyə olduğuna görə, daim cəmiyyət bunlar arasında tez-tez yaranan konfliktlərdən xəbərdar olur. Alınan maliyyəni aralarında bölə bilmədiklərindən qarşılıqlı ittiham, siyasi hoqqabazlıqların şahidi oluruq. Bu peyk QHT rəhbərlərinin bir neçəsi indi Avropanın bir neçə ölkəsinə qaçaraq, orada da missiyalarını yerinə yetirirlər. Anti-Azərbaycan təbliğatı apararaq, müxtəlif Avropa fondlarından və xüsusi xidmət orqanlarından maliyyə əldə edərək, buradakı dağıdıcı müxalifəti qanunsuz olaraq maliyyələşdirirlər. Çox güman ki, alınmış maliyyə vəsaitinin düzgün bölünməməsi və ya təyinatı üzrə xərclənməməsi səbəbindən, yenə bunlar arasında konflikt yaranmışdır. Bu zaman bunlar cəmiyyət qarşısında, təbii ki, maliyyə ilə bağlı yox, guya bir-birini siyasi səriştəsizlikdə günahlandırırlar. Ancaq artıq hər kəsə bunların fəaliyyəti məlumdur. Konfliktin və qarşılıqlı ittihamın nəyə görə olduğu heç kimə sirr deyil. Hesab etmirəm ki, bunlar arasında bu cür yaranan konfliktlər hansısa ziddiyyətə gətirib çıxara. Bunları maliyyələşdirən qüvvələr qarşısında bunlar götürdükləri öhdəliklərdən tam asılıdırlar. İstəsələr də, istəməsələr də birgə işləməlidirlər, çünki özlərindən başqa heç bir sosial bazaları olmayan bu şəxslər üçün bunları əvəzləyəcək başqaları yoxdur.

*GÜLYANƏ*

# İcbari tibbi sığortaya keçid vətəndaşların müasir və keyfiyyətli tibbi xidmətinin təminidir




Ölkəmizdə həyata keçirilən inkişaf strategiyasının başlıca məqsədi vətəndaş firavanlığına, sosial rifah halının yaxşılaşmasına istiqamətlənib. Son dövrlərdə Azərbaycan Prezidenti İlham Əliyev tərəfində əhalin sağlamlığının və rifah halının yüksəldilməsi ilə bağlı imzaladığı fərman və sərəncamlar bu sahədə tədbirlərin gücləndirilməsinə, yeni addımların atılmasına geniş imkanlar açır. Azərbaycanda səhiyyə sisteminin yenidən qurulması, əhalinin sağlamlığının daha yaxşı təşkili, bu sahədə yeni texnologiyaların tətbiqi və yeni kadr potensialının hazırlanmasını özündə əks etdirən dövlət proqramları tibbi xidmətin səviyyəsini yüksəldib.

Səhiyyə sahəsində aparılan islahatların davamı olaraq, icbari tibbi sığortanın tətbiqi hökumətin səhiyyə sahəsində apardığı islahatların tərkib hissəsidir. İcbari tibbi sığortaya keçid ölkə vətəndaşlarının tibbi xidmətlərə əlçatanlığını artırır. İcbari tibbi sığorta müasir və keyfiyyətli tibbi xidməti təmin edən səhiyyənin maliyyələşdirilməsinin yeni formasıdır. Bu sistemin, sonradan genişləndirilə biləcək baza zərfi çərçivəsində həyata keçirilməsi nəzərdə tutulur. Bu layihənin məqsədi səhiyyənin maliyyələşdirilməsini təkmilləşdirmək, habelə, əhaliyə etibarlı, keyfiyyətli, səmərəli tibbi xidmətlərin göstərilməsinə zəmanət verəcək universal və dayanıqlı tibbi sığortanı təmin etməkdir.

Ölkəmizdə icbari tibbi sığorta ilə bağlı pilot layihələr həyata keçirilir. Hazırda icbari tibbi sığortanın 1829 tibbi xidməti əhatə edən baza zərfi əsasında Mingəçevir şəhərində, Yevlax və Ağdaş rayonlarında pilot layihə həyata keçirilir. Gələcəkdə isə, icbari tibbi sığortanın mərhələli şəkildə bütün ölkə üzrə tətbiq edilməsi planlaşdırılır.

Artıq icbari tibbi sığorta haqqının məbləği də müəyyənləşdirilib. Belə ki, bu haqq muzdlu işçilərin əmək haqqından tutulacaq. Bu zaman əmək haqqının 2 faizi işçidən, 1 faizi isə işəgötürəndən olmaqla cəmi 3 faiz ödəniş tələb ediləcək. İşləməyən vətəndaşlar isə illik 120 manat ödəməklə sığorta paketini əldə edə biləcəklər. Bir sıra kateqoriyadan olan vətəndaşların icbari tibbi sığortası tam olaraq dövlət hesabına təmin ediləcək. Bunlar 18 yaşadək uşaqlar, əyani təhsil alan tələbələr, pensiyaçılar, sosial müavinət alanlar, hamilə qadınlar və digərləridir.

İcbari tibbi sığortanın baza zərfinə 18 növ ilkin səhiyyə xidməti, 6 növ təcili və təxirəsalınmaz yardım xidməti, 480 növ ambulator, 677 stasionar, 459 laborator, 166 növ həyati vacib, dəyəri yüksək olan xidmətlər daxil edilir. Bu zaman təcili və təxirəsalınmaz tibbi xidmət bütün əhali üçün pulsuz olmaqla, sığorta tələb edilmədən dövlət tərəfindən təklif ediləcək. Baza zərfinə daxil edilən həyati vacib, dəyəri yüksək tibbi xidmətlər müəyyənləşdirilərkən, ölüm səbəbləri arasında öndə gedən xəstəliklər nəzərə alınıb. Belə ki, qapalı və açıq ürək əməliyyatları, o cümlədən, stend qoyulması, damar əməliyyatları sığorta paketinə daxil edilib, çünki ürək-damar xəstəlikləri ölüm səbəbləri arasında yüksək yer tutur. Müxtəlif orqanların transplantasiyası əməliyyatları, hələlik, icbari tibbi sığorta paketinə daxil edilməyib. Azərbaycanda işləyən xarici vətəndaşlar da icbari tibbi sığortadan yararlana biləcəklər. Bunun üçün əsas şərt onların vətəndaşı olduqları ölkə ilə qarşılıqlı müqavilənin olmasıdır.

İcbari tibbi sığorta xəstəliklərin erkən mərhələdə aşkar edilməsində, daha ağır mərhələyə keçidinin qarşısının alınmasında, ən ucqar kəndlərdə belə yaşayan əhalinin keyfiyyətli tibbi xidmətlərlə təmin olunmasında əhəmiyyətli rol oynayır.

*Nəzakət ƏLƏDDİNQIZI*

# Özbəkistanın "Dunyo Boylab" telekanalında "Alovlar yurdu - Azərbaycan" adlı veriliş yayımlanıb

***Özbəkistanın "Dunyo Boylab" telekanalında "Alovlar yurdu - Azərbaycan" adlı veriliş yayımlanıb. Özbəkistanın tanınmış televiziya jurnalisti Elmira Tuxvatullinanın hazırladığı ikinci veriliş Azərbaycanın paytaxtı Bakı şəhərinə həsr olunub. Verilişdə Bakının gözəlliyi, tarixi, müasirləşməsinə və inkişafına baxmayaraq öz keçmişini qoruyub saxlaması, şəhərin füsunkar görünüşü, qədim İçərişəhər, paytaxtın mərkəzində yerləşən və gözoxşayan qədim binalar haqqında məlumat verilir və deyilir ki, şəhəri gəzərkən, insan özünü nağıllar dünyasında hiss edir.***

Veriliş boyu Azərbaycan xalq musiqilərinin səsləndiyi proqramda ölkənin vizit kartı olan İçərişəhərin 2000-ci ildə UNESCO-un ümumdünya irsi siyahısına daxil edildiyi qeyd olunur.



Proqramda Azərbaycanın və SSRİ-nin Xalq artisti, dünya şöhrətli müğənni Rəşid Behbudovun yaradıcılığından danışılıb, onun ifasında Bakı haqqında mahnı səsləndirilib, şəhərin mədəni simasının çox zəngin olduğu, mərkəzi küçələrdə bir-birinə yaxın yerləşən mədəniyyət abidələri haqqında məlumat verilir.

Verilişdə Bakının Dənizkənarı Bulvarı, Venesiya şəhərciyi, gözəl parkları, küçələri, Fəvvarələr meydanı, məşhur Nizami küçəsi, qədimlik və müasirliyin sintezi olan Alov qüllələri və şəhərə gələn çoxsaylı xarici turistlər barədə söhbət açılır.

Müəllif qeyd edir ki, paytaxtın mərkəzində Şərq üslubunda tikilən Nizami adına Azərbaycan Ədəbiyyatı Muzeyi şəhərə və onun memarlığına xüsusi rəng qatır. Azərbaycanın tanınmış ədəbiyyat xadimlərinin antik üslubda heykəllərinin ucaldığı muzey binası öz əzəməti ilə şəhərə gələn çoxsaylı turistləri cəlb edir.

Verilişdə Bakı gecələri Neapol gecələrinə bənzədilir, Şərqin mirvarisi, amfiteatr formasında olan və Xəzərə qucaq açan şəhərin öz gözəlliyi ilə fəxr etdiyi qeyd olunur. Qeyd edək ki, veriliş Azərbaycan Mədəniyyət Nazirliyinin, ölkəmizin Özbəkistandakı səfirliyinin dəstəyi, Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə bu ilin iyun ayında Azərbaycana təşkil olunmuş mediatur zamanı hazırlanıb və səfərlə bağlı Özbəkistanın KİV-lərində və televiziya kanallarında ölkəmizə dair silsilə verilişlər, məqalələrin çapı davam edir. (AZƏRTAC)

# Ermənistan müharibə qorxusu və təşviş içindədir



***Son vaxtlar Ermənistanda cərəyan edən hadisələr, yeni hakimiyyətin bir-birinə zidd bəyanatları, bu işğalçı ölkənin və onun hakimiyyətinin geosiyasi mövqeyində olan təzadlar dünya ictimaiyyətinin diqqət mərkəzindədir. İstər Nikol Paşinyanın, istərsə də onun yaxın ətrafının, ümumilikdə, Ermənistan hakimiyyətinin qarmaqarışıq və təzadlarla dolu olan siyasi kursu, nəinki başadüşülən deyil, hətta heç bir müstəvidə qəbulolunan da hesab edilmir. Çünki yeni baş nazirin sərsəm bir nümayişçi kimi, indi hakimiyyət kürsüsündən istifadə etməsinə, ağlına korluq verməndən ziddiyyətlərlə dolu bəyanatlar verməsinə, absurd fikirlərinə, uyğunsuz addımlarına diplomatik təcrübədə rast gəlinməyib.***

Maraqlıdır, içğalçı dövlətdə son yarım ildə, yeni inqilab pərdəsi altında dövlət çevrilişi reallaşdırıldıqdan və küçə nümayişçisinə baş nazir kürsüsü həvalə edildikdən sonrakı müddətdə erməni dövlətçiliyinin başı üzərindəki təhlükə, bu ölkənin daha böyük uçuruma və daha böyük sürətlə getdiyi geniş xalq kütlələrinə aydın deyilmi? Qərb diplomatiyasına oyuncaq olmağa hakimiyyət naminə razılıq verən, bunun müqabilində əsrlər boyu himayədarı olan Rusiyaya xəyanətkar mövqe nümayiş etdirən, nəticədə, ermənilərin əllərinin və ümidlərinin ruslardan da üzülməsini reallaşdıran nümayişçinin düşüncəsiz siyasətini, bunun acı nəticələrini görmürlərmi? Erməni cəmiyyəti Qərbin də artıq onların arxasından çəkildiyinin və guya ki, demokratiya, azadlıq istəyənlərin həm Ermənistandan, həm də Paşinyandan imtina etdiklərinin fərqində deyilmi? Fərqində deyilmi ki, Qərb tərəfindən qızışdırılan, oyunlarına da alət olan Paşinyan, eləcə də, Ermənistan hakimiyyəti Qərb və Rusiya arasında başını itirmiş vəziyyətdə qalıb?

### Ermənistan mətbuatında Azərbaycanın gücü etiraf edilir, qorxu, təlaş və çaşqınlıq müşahidə olunur

Doğrudur, erməni mətbuatında Azərbaycan Ordusunun Qarabağa hücuma hazırlaşdığı, Ərdoğanın Bakıda keçirilən parad zamanı Qarabağ münaqişəsində Azərbaycanı dəstəkləməsi barədə və buna bənzər müxtəlif səpkili yazılar dərc edilir və bu, təbii ki, Ermənistanın durumuna görə keçirilən təlaşın təzahürüdür. Ermənistanın kütləvi informasiya vasitələrində daha çox Bakıda keçirilən paradın təəssüratları, daha doğrusu, həyəcanı daha qabarıq şəkildə hiss olunur. Cənab Prezident İlham Əliyevin, güclü ordunun ərazi bütövlüyünün bərpası üçün vacib əsas şərt olduğunu, bu gün Azərbaycan Ordusunun gücünün artdığını və işğal altında olan bütün ərazilərimizdə bayraqlarımızın yellənəcəyi günün yaxınlaşdığını söyləməsi erməni mediasında rezonans doğurub. Xüsusən, Ərdoğanın Azərbaycana məxsus torpaqların işğalında günahkar olanların, milyondan çox qaçqınımızın evlərinə dönməsinə imkan verməyənlərin Türkiyə ilə sərhədləri açmaq gözləntilərinin hədər yerə olduğunu söyləməsinə işğalçı ölkənin mətbuat səhifələrinin aqressiv reaksiyası da müşahidə olunur. Sözsüz ki, bütün bu təzahürlər günün reallıqları, məhz Azərbaycan həqiqətləri, ölkəmizin gücünün artması, müttəfiqlərinin, tərəfdarlarının, dost və qardaş ölkələrin sayının günbəgün çoxalması, bununla yanaşı, Ermənistanın müttəfiqsiz qalaraq, bölgədə marginallaşması ilə əlaqədardır.

### Paşinyan hakimiyyətinin geosiyasi müstəvidə məğlubiyyətləri danılmazdır və hələ bundan sonra da davam edəcək

Əslində, erməni xalqı Paşinyanın daxili auditoriyaya hesablanmış populist çıxışları, vədləri, bəyanatları ilə aldadılır və bəlkə ermənilər, hələ də bu küçə nümayişçisi kimi, ortaya atılmış avantüristin siyasətindən nə isə gözləyirlər. Amma Ermənistanın yeni hakimiyyəti özü öz durumunu çox yaxşı bilir. Bilir ki, geosiyasi müstəvidə məğlubiyyətləri danılmazdır və hələ bundan sonra da davam edəcək. Bu isə, öz növbəsində, ölkəni daha da səfalətə, yoxsulluğa, hətta məhvə sürükləyir və qısa zaman kəsiyindən sonra Ermənistanın bir dövlət olaraq, mövcudluğunu sual altında qoyur. Belə olan şəraitdə, ermənilərin, erməni xalqının, Ermənistanda məskunlaşan insanların hansı vəziyyətdə qalacaqları barədə isə proqnoz verməyə nümayişlərdən hakimiyyət kürsüsünə əyləşənlərin gücü çatmır. Əvəzində, müvəqqəti olaraq, kütlənin sakitləşdirilməsi üçün vədlər verilir, bir sözlə, daxili auditoriyaya hesablanmış bəyanatlarla çıxış edilir. Amma bu bəyanatları Paşinyan hakimiyyəti belə çıxış yolu hesab etmir. Əks halda, Rusiyaya, Fransaya səfər edilməz, Trampla görüş planlaşdırılmaz, sakit şəkildə yerlərində oturar, daha pafoslu, daha populist vədlər düşünüb xalqı, erməni xalqını tovlatmaqla kifayətlənərdilər.

Ermənistanın yeni hakimiyyəti bir zamanlar etibarlı müttəfiq hesab etdikləri Rusiya Federasiyasına, şəxsən Prezident Vladimir Putinə də bel bağlaya bilmir və onları başa düşmək də çətin deyil. Çünki "məxməri inqilab"ların fonunda Rusiyaya qarşı hörmətsizlik, saymazlıq etmələri bir tərəfə, prezident Vladimir Putinin Azərbaycan Prezidenti İlham Əliyevlə görüşünü və ikitərəfli münasibətlərin inkişafını nəzərdə tutan müqavilələrini, ələlxüsus, hərbi sahədə əməkdaşlıqları və onların bundan sonra daha geniş miqyasda davam etdiriləcəyini nəzərdə tutan sazişlərini yaxşı xatırlayırlar. Bu il sentyabrın 25-də Rusiya Federasiyasının Prezidenti V.Putinin Azərbaycana nəzərdə tutulan səfəri barədə məlumatlı olan Ermənistanın yeni hakimiyyəti çox yaxşı başa düşür ki, artıq bölgədə Rusiya üçün maraqlı olan dövlət Ermənistan yox, Azərbaycandır.

### Baş nazir Paşinyan öz hakimiyyətini qorumaq üçün populist vədlər verərək, erməni xalqını aldadır

Paşinyanın Ermənistan hakimiyyətini ələ keçirdikdən sonra həmin ölkənin get-gedə hansı duruma düşdüyünü, daha dəqiq desək, küçə nümayişçisinin bir ölkəni hansı vəziyyətə saldığının yeni hakimiyyət özü də fərqindədir. Onun da fərqindədir ki, sammit zamanı rəsmi görüşlər çərçivəsində sülh danışıqlarından dəm vuran baş nazir, digər bir müstəvidə müharibə mövzusunda bəyanatlar verir. Ermənistanın yeni hakimiyyəti parlament səviyyəsində Azərbaycana qarşı müharibə elan edir, sonra da sülh danışıqlarını xatırlamağa başlayır. "Şant-2018" hərbi təlimləri çərçivəsində, şərti düşmən kimi, Azərbaycana müharibə elan edən yeni hakimiyyət, bir tərəfdən də Azərbaycanın hərbi qüdrətini gördükdə, torpaqları geri qaytarmaq gücündə, əzmində olduğunu müşahidə və dərk etdiyinə görə, bundan təşvişə düşür.

Ümumiyyətlə, başda Nikol Paşinyan olmaqla, Ermənistanın yeni hakimiyyəti nə etdiyinin, necə etdiyinin hələ də fərqində deyil. Qeyd etdiyimiz kimi, gah sülh danışıqlarından dəm vurur, gah müharibə elan edir, gah da müharibə təhlükəsi hiss etdikdə, qorxu və təlaş içində olur. Amma Paşinyan kimi avantürist və onun komandası kütlənin oyanmasından, növbəti etirazlardan, hakimiyyət kürsüsünü itirmək təhlükəsindən ehtiyat edərək, yalnız xalqı, erməni xalqını aldatmaqdan başqa, heç bir strategiya ilə çıxış etmir. Bir sözlə, hələ də müəyyən müddət, zaman fasiləsi qazanmaqla kifayətlənir və hakimiyyətini bacardıqca daha bir müddət qorumağa çalışır. Amma Paşinyanın bu avantürasının da fonunda etirazların yenidən qızışmayacağına kimsə zəmanət verə bilməz. Tezliklə Ermənistan ictimaiyyəti yalançı, populist vədlərdən cana doyacağına zərrə qədər şübhə yoxdur. Erməni xalqı vətəndaşlığını daşıdıqları dövlətin, yaşadıqları ölkənin marginallaşdığını, müttəfiqsiz, tərəfdaşsız qaldığını bir zaman tam şəkildə dərk etdikdə, Paşinyanın vədlərinin də, hətta özünün də sonu çatacaq.

***İnam HACIYEV***

## Aşura günündə qan verən 289 nəfərdə təhlükəli infeksiya aşkarlanıb



Aşura günü qan verən 1 nəfərdə QİÇS, 96 nəfərdə Hepatit B, 116 nəfərdə Hepatit C, 76 nəfərdə sifilis aşkarlanıb. Səhiyyə Nazirliyindən SİA-ya verilən məlumata görə, Aşura günü qana ehtiyacı olan xəstələrə yardım məqsədi ilə keçirilən könüllü qanvermə aksiyalarında toplanılan qanların infeksiyalara görə müayinəsi aparılıb. Aşura günü qan verən 5 min 539 nəfərin qanının yoxlanılması B.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun Mərkəzi Qan Bankının kliniki laboratoriyasında İFA (imunoferment ) metodu ilə həyata keçirilir.

Qanlar 4 infeksiyaya görə (HIV; HBsAg; HCV; Sifilis) yoxlanılır. Müayinələrdə skrining keçirilir və infeksiya baxımından şübhəli olan qanlar barəsində müvafiq müəssisələrə məlumat verilir. Müayinələr zamanı sifilislə şübhəli olan şəxslər barədə Dəri zöhrəvi Dispanserinə, Hepatitə şübhəli şəxslər barəsində Gigiyena və Epidemiologiya Mərkəzinə, QİÇS-lə bağlı Respublika QİÇS Mərkəzinə məlumat verilir və həmin şəxslər təkrar müayinələrə dəvət olunur. İnfeksiya baxımından şübhəli qanlar müvafiq qaydalara uyğun olaraq zərərsizləşdirilir. Aşura günü qan verən 5 min 539 nəfərin qanı müvafiq qaydada yoxlanılıb.

## "Paşinyanın BMT-dəki çıxışı yalan tezislər üzərində qurulub"

"Paşinyan hökuməti küçədən gələn bir hökumətdir. Planlı və real siyasət yürütmək imkanlarından məhrumdur. Seçki öncəsi problemin həlli üçün güzəştə getmək isə ümumiyyətlə Paşinyanın şəxsi maraqlarına uyğun deyil. Ona görə də hazırda daha çox bu məsələyə emosional yanaşmağa və populist açıqlamalara üstünlük verir". Bu fikirləri SİA-ya açıqlamasında siyasi-şərhçi Arzu Nağıyev deyib. Hazırda erməni hökumətinin Dağlıq Qarabağ probleminin həllində maraqlı olmadığını deyən siyasi şərhçi söyləyib ki, Paşinyan hakimiyyətə gəlmədən əvvəl Madrid prinsiplərini ideal hesab etsə də, indi bu fikirlərindən tamamilə yayınıb.



Paşinyan Nyu-Yorkda BMT sessiyasındakı çıxışına toxunan A. Nağıyev qeyd edib ki, Paşinyan sessiyaya getməzdən əvvəl Azərbaycana müharibə elan edib, BMT-dəki çıxışında isə münaqişənin sülh yolu ilə həllindən danışıb: "Gah Azərbaycanı sülhə çağırır, gah deyir ki, Qarabağ Azərbaycanın tərkibində olmamalıdır. Bundan başqa, o, ermənilərin Dağlıq Qarabağda Azərbaycanın tərkibində yaşamaq istəmədikləri və guya Bakının münaqişə tərəfi kimi Dağlıq Qarabağdakı separatçı rejimlə danışıqlara başlamalı olduğu ilə bağlı fikirlər səsləndirməklə bütün dünyanın fikrini yayındırmaq istəyir. Paşinyanın BMT-dəki çıxışının yalan tezislər üzərində qurulduğunu dilə gətirən siyasi şərhçi vurğulayıb ki, reallığa erməni liderin sözləri arasında paradoks yaranır: "Ermənistan müharibə istəmir və eyni zamanda, sülh danışıqlarına getmir. Deməli, Paşinyan həm müharibədən, həm də sülhdən qorxur. O, seçkilərə qədər vaxt udmaq istəyir. Paşinyanın daxili və xarici siyasəti absurddur".

## Mariya Zaxarova: "Poroşenko 2014-cü ildə də qapını səhv salmışdı"

Rusiya XİN-nin rəsmisi Mariya Zaxarova Ukrayna prezidenti Pyotr Poroşenkonun BMT-nin Baş Assambleyasının 73-cü sessiyası zamanı səhvən Rusiya nümayəndə heyəti üçün ayrılmış görüş otağına daxil olmasına özünəməxsus şəkildə fikir bildirib. SİA RİA Novosti-yə istinadən xəbər verir ki, "O, 2014-cü ildə də qapını səhv salmışdı", deyən Zaxarova ümumiyyətlə ukraynalı liderin tez-tez səhvlər buraxdığını da deyib.

Xatırladaq ki, Poroşenko Rusiyanın xarici işlər naziri Sergey Lavrovun da olduğu Rusiya nümayəndə heyətinin otağına səhvən daxil olduqdan sonra, Lavrov bu insidentə ilginc münasibət bildirmişdi. "Yəqin tualetlə səhv salıb", deyən Lavrov Ukrayna prezidentinin bu addımına istehzalı münasibət sərgiləmişdi.

# Müxalifətin sözü bitəndə, Qarabağ “yada düşür”

## *Yaxud bir araya gələ bilməyənlər ümummilli məsələlərdə də fərqli fikirdədirlər*



Bəlli olduğu kimi, ənənəvi düşərgədə təmsil olunan bir sıra müxalifət partiyaları bu dəfə “Qarabağa azadlıq” şüarı altında mitinq keçirməyi planlaşdırırlar. Buna baxmayaraq, həmin mitinqdə kimlərin, hansı partiyaların iştirakları da qeyri-müəyyən qalmaqdadır. O cümlədən, zaman-zaman qarşıdurma və intriqalarla yadda qalan, eləcə də, yalnız siyasi maraqları naminə didişən müxalif siyasi təşkilat rəhbərlərinin sözügedən mitinqə də Qarabağa görə deyil, məhz öz dividendlərinə görə qatılacaqları bəri başdan bəllidir. Belə olan halda, sual yaranır: əgər müxalifət partiyalarının “liderləri” Qarabağın azadlığı üçün bu qədər “can yandırırlarsa”, nəyə görə ölkənin digər məsələlərində ümumi maraqdan çıxış edə bilmirlər? Yaxud düşərgədaxili parçalanmaların qarşısını ala bilmək üçün hansı səbəbdən, bir masaya oturmağı özlərinə təhqir hesab edirlər?

### Partiyalar, təbii ki, bu cür səs-küylərində səmimi görünmürlər

Söz yox ki, “mitinqdə iştirak edəcəyik” deyə hay-haray salan, əslində, bu vasitə ilə özlərinin siyasi reklamlarını aparmağa cəhd edən AXCP, Müsavat, AMİP, “Ümid”, ADP, KXCP, VHP, VİP və s. partiyalar, təbii ki, bu cür səs-küylərində səmimi görünmürlər.

Yeri gəlmişkən, xatırlatmaq lazımdır ki, hakim Yeni Azərbaycan Partiyası müxalifətdən fərqli olaraq, hər zaman ümummilli məsələlərdə öndə olub, hətta düşərgə təmsilçilərinə dialoq müstəvisində müzakirələr aparmağı da təklif edib. Maraqlısı da odur ki, “Qarabağa azadlıq” şüarını əllərində bayraq edənlər, nədənsə, həmin dialoq mühitinə müzakirələrə qatılmaqdan imtina ediblər. Bu faktın özü də, belə qənaətə gəlməyə zəmin yaradır ki, ümumiyyətlə, bu cür dırnaqarası müxalifətin mövcudluğu nə xalqa, nə də dövlətçilik maraqlarına lazım deyil.

### Erməni lobbisinə işləyən müxalifətə nə Qarabağ, nə də dövlətçilik maraqları lazım deyil

Çox yəqin ki, mitinq baş tutarsa belə, tribunaya can atmaq, orada söz demək uğrunda didişmələr olacaq. Çünki bu müxalifətə nə Qarabağ, nə də dövlətçilik maraqları lazım deyil. Onlara lazım olan maddiyyatdır ki, bunun üçün də illərdi düşərgədə çabalayaraq, xarici dairələrə, erməni lobbisinə işləməklə onu qazanırlar. Məntiq də budur ki, erməni lobbisinə işləyənlərin “Qarabağa azadıq” şüarları, ümumiyyətlə, bir-birinə zidd olan fikirlərdir. Bu baxımdan, həmin mitinqin uğurla nəticələnəcəyini bəri başdan söyləmək olar.

***Rövşən RƏSULOV***

## Rauf Arifoğlu: “Orduxan Teymurxanın söz kasadlığı var və nə danışdığını heç özü də bilmir”



Avropada “siyasi mühacir” adı altında casusluq fəaliyyəti göstərdiyi məlum olan Orduxan Bəbirovun (Teymurxan) “Yeni Müsavat” və digər media qurumlarında barəsində gedən ifşaedici materiallardan sonra, onun, xüsusilə, Rauf Arifoğluna qarşı başlatdığı təhqir kampaniyası cavabsız qalmayıb. Belə ki, məsələ ilə bağlı “Səs” qəzetinə açıqlama verən Rauf Arifoğlu O.Teymurxanın “tərbiyəsinin” bundan artıq olmadığını deyərək, eyni zamanda, söz qıtlığı yaşadığını bildirib. “Yeni Müsavat”ın baş redaktoru O.Teymurxanın barəsində ortaya çıxan faktlarla bağlı narahat olmasının dolayı etiraf kimi də qiymətləndirilə biləcəyini istisna etməyib: “Bu adamın söz kasadlığı var və nə danışdığını heç özü də bilmir”. “Üzə çıxacaq növbəti faktlar isə, onun kimliyini bir daha təsdiq edir. O, xarici kəşfiyyata işləyən bir xəyanətkardır” deyə qeyd edən baş yazar onun ifşasının bundan sonra da davam edəcəyini bildirib.

Xatırladaq ki, son günlər Hollandiyada yaşayan O.Teymurxan barəsində bir sıra danılmaz sübutlar ortaya çıxıb və onun xüsusi xidmət orqanlarının casusu kimi çalışması ilə yanaşı, Azərbaycan dövlətinə və xalqına qarşı bəd əməlləri də isbatlanıb. Xüsusilə, “Yeni Müsavat” qəzetinin baş redaktorunu hədəfə alan O.Teymurxan və onun sosial şəbəkədəki “söyüş qrupu” ona qarşı söyüş və təhqirlər yağdırıb.

***RÖVŞƏN RƏSULOV***

# “Nar” yarım illik hesabatını və yenilənmiş brendini təqdim edib

***“Nar” 2018-ci il üçün yarım ilin nəticələrini açıqlayıb. Nəticələrə əsasən, mobil operator bu dövr ərzində bir çox əhəmiyyətli dərəcədə artırmağa nail olub. SİA-nın xəbər verir ki, ötən ilin müvafiq dövrü ilə müqaisədə “Nar”-ın aktiv abunəçi bazası 6% artaraq, 2,1 milyon nəfərə çatıb. Abunəçi bazasının 56%-I Bakının, 44%-I isə regionların payına düşür.***



Şəbəkə infrastrukturunun genişlənməsinə xüsusi önəm verən “Nar” il ərzində ölkə ərazisində 380 ədəd 4G,118 ədəd 3G stansiyası qurub. İlin sonuna qədər daha 387 ədəd 4G, 29 ədəd 3G baza stansiyuası qurulacaq. Bununla da 2018-ci il üçün planlaşdırılan 3G baza stansiyalarının sayı 2674, 4G baza stansiyalarının sayı isə 1706-ya çatdırılacaq. Aparılan şəbəkə işlərinin nəticəsi olaraq 37 bölgə “Nar” 4G şəbəkəsi ilə əhatə olunub. “Nar” 4G baza stansiyalarının təqdim etdiyi yüksəkkeyfiyyətli mobil internet xidməti nəticəsində 4G internetinin trafik həcmi ötən ilin eyni dövrü ilə müqaisədə 3 dəfə artıb. Mobil operatorun 4G istifadəçilərinin sayı 250 min nəfərə çatıb.

“Nar” çari il üçün satış üzrə də yüksək nailiyyətlər əldə edib. Ötən ilin müvafiq dövrü ilə müqaisədə pərakəndə satış üzrə 21%, səyyar satış komandasının yaradılması ilə ucqar kənd və ərazilərdə 77% artıma nail olub. Biznes tərəfdaşlarının sayını ildən-ilə sürətlə artıran mobil operator il ərzində 170-dən çox yeni korporativ şirkət cəlb edib. “Nar” korporativ müştəriləri üçün yeni sərfəli xidmətlər (smartfon, 4G data modem və portative internet daşıyıcısı) təklif edir.

“Azerfon” MMC-nin baş icraçı direktoru Qunnar Panke yarım ilin nəticələrini yüksək qiymətləndirib: “Biz bu il öz mövqeyimizi bazarda daha da gücləndirmişik. İrihəcmli investisiyalar yatırmaqla, şəbəkələrimizi genişləndirdik, keyfiyyətimizi əhəmiyyətli dərəcədə artırdıq. Amma bununla yanaı yüksəkkeyfiyyətli xidmət və sərfəli qiymət strategiyası siyasətinə sadiq qalırıq.

Tədbir zamanı “Nar”-ın yenilənmiş brendi, süarı və reklam filmi təqdim olundu. Yenilənmiş brend müştərilərin ehtiyacını qarşılamaq, onların etibarlı tərəfdaşı olmaq məqsədi daşıyır. “Nar”-ın yeni “Çünki daha çoxuna layiqsən” süarı məhz bu xüsusiyyətləri özündə birləşdirir və abunəçilərə yönəlik strategiyanı özündə əks etdirir.”

Xatırladaq ki, “Azerfon” şirkəti (“Nar” ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekomunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. “Nar” ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib.

***İnam Hacıyev***

## Baş Prokurorluq: “Qazax Rayon Polis Şöbəsindəki ölümlə bağlı polis əməkdaşı saxlanılıb”

Baş Prokurorluq Qazaxdakı ölüm hadisəsi ilə bağlı məlumat yayıb. Baş Prokurorluğun mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, Elmir Axundovun Qazax rayon Polis Şöbəsində vəfat etməsi faktı ilə bağlı rayon prokurorluğunda Cinayət Məcəlləsinin 124.1 (ehtiyatsızlıqdan adam öldürmə) və 221.3-cü (xuliqanlıq, silahdan və ya silah qismində istifadə edilən əşyaları tətbiq etməklə törədildikdə) maddələri ilə cinayət işi başlanıb. Aparılmış istintaqla Kərim Əhmədovun Cinayət Məcəlləsinin 221.3-cü maddəsində nəzərdə tutulmuş cinayət əməlini törətməsinə dəlalət edən ilkin sübutlar toplandığından o, təqsirləndirilən şəxs qismində cəlb edilərək barəsində məhkəmənin qərarı ilə həbs qətimkan tədbiri seçilib.

İstintaq zamanı həmçinin, rayon Polis Şöbəsinin növbətçi hissəsinin məsul növbətçisi İlham Süleymanovun Cinayət Məcəlləsinin 308.2-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə, ağır nəticələrə səbəb olduqda) maddəsində nəzərdə tutulan cinayət əməlini törətməsinə şübhələr üçün kifayət qədər əsaslar olduğundan şübhəli şəxs qismində saxlanılıb. Hazırda cinayət işi üzrə zəruri istintaq tədbirləri davam etdirilir.

## Maşın 5 yaşlı uşağı vurub öldürüb



Qobuda maşın 5 yaşlı uşağı vurub öldürüb. DİN-dən SİA-ya verilən məlumata görə, sentyabrın 27-də saat 17:00 radələrində Abşeron rayonunun Qobu qəsəbəsi ərazisində Kürdəmir rayon sakini Zahir Məlikov idarə etdiyi “VAZ-21013” markalı avtomobillə yolu keçən qəsəbə sakini - 5 yaşlı Nuran Güləliyevanı vurub. Nəticədə xəstəxanaya yerləşdirilmiş uşaq orada ölüb. Abşeron RPİ tərəfindən araşdırma aparılır.

# İnsan həyatının mənası və insan haqları

***Müasir mərhələdə insan hüquq və azadlıqlarına, onların müdafiəsinə və təminatlara yanaşmalarda nəzərə çarpacaq dərəcədə müxtəlifliklər meydana çıxmış, əxlaqi sərvətlərin qiymətləndirilməsi ümumi-dünyəvi prinsiplərin çərçivəsindən çıxaraq, beynəlxalq səviyyədə bəzi dairələrin şəxsi mülahizə obyektinə çevrilmişdir. Qərbi Avropanın bəzi dövlətlərində "demokratik dəyərlərin qorunması" pərdəsi altında ikili standartlar dəbə düşmüş, sanki bəzi üzdəniraq insan haqları müdafiəçilərinin vərdişinə, ən pisi isə, gəlir və qazanc mənbəyinə çevrilmişdir.***

Leyla İsgəndərova yazır: "Problemin həllini çətinləşdirən məqamlardan biri ondan ibarətdir ki, bilavasitə insan hüquq və azadlıqlarının pərvəriş tapdığı cəmiyyətin özünə münasibət dəyişmiş, insan, şəxsiyyət amili unudulmuş və özünü müdafiəçi hesab edən Qərb siyasətbazları bu gün, sözün əsl mənasında, insan haqlarının qorunması sferasında əsl buxova çevrilmişdir. İnsan taleyinə, onun təbii hüquqlarına və pozitiv hüququn vasitəsi ilə əldə etdiyi azadlıqlarına münasibət, o dərəcədə dəyişmişdir ki, vətəndaşları ölkəni günbəgün, saatbasaat tərk edən dövlətin faşist rejiminə bir növ haqq qazandırılır, vətəndaşları məcburi qaçqın və köçkün vəziyyətinə düşmüş və ərazisi işğala məruz qalmış ölkə "Avropanın nüfuzlu təşkilatlarının" qınaq obyekti olmuşdur. Ən böyük ədalətsizlik isə, işğalçı Ermənistanla işğala məruz qalmış Azərbaycanın eyni beynəlxalq təşkilatın üzvi olmasında təzahür edir. Bu, heç bir sağlam məntiqə sığmayan cəfəngiyyatı xatırladır. Məsələnin ən pis cəhəti isə, ondan ibarətdir ki, bu, tərəqqipərvər bəşəriyyətin gözləri qarşısında baş verir, bizə demokratiya dərsi vermək istəyənlər isə bunu dərk etmir. Avropanın hüquq müdafiəçiləri dərk etmirlər ki, Ermənistanda mövcud olan faşist rejimi və yeridilən işğalçılıq siyasəti insanlığı Üçüncü Dünya Müharibəsinin astanasına sürükləyir.

Görünür, Qərbi Avropanın indiki işbazları İkinci Dünya Müharibəsinin dəhşətlərini unutmuşlur. Avropanın bəzi ölkələrində özünü demokratiya, insan hüquq və azadlıqlarının müdafiəçisi hesab edən dairələri, hər şeydən əvvəl, insanın, insanlığın kim və nə olduğunu yaddan çıxarmışlar. Bu müdafiəçilər insan cəmiyyətini özlərinin "demokratiya uğrunda mübarizə"meydanına çevirməklə, elə zənn edirlər ki, bəşəriyyətə və onun haqq işinə xidmət edirlər. Əslində isə, belə deyil, hətta Avropanın bəzi beynəlxalq təşkilatları insan, şəxsiyyət və cəmiyyət amilinə məhəl qoymayaraq, öz şəxsi ambisiyalarının müftəxor əsiri olmuşlar. Belələrini, nəinki müdafiəçi, hətta insan adlandırmağın özü günahdır. Çünki insanın vəzifəsi, ilk növbədə, özünə, sonra isə, öz həmnövünə hörmət etməkdən ibarətdir. Özünə və başqasına, bütövlükdə cəmiyyətə və onun ümumi rifahına, mənafelərinə hörmət etməyən hüquq və azadlıqlara necə hörmətlə yanaşa, yaxud onların müdafiəsi ilə çıxış edə bilər. Şübhəsiz ki, bu, qeyri-mümkündür."

İngilis klassik tədqiqatçısı Con Stüart Mill "Azadlıq haqqında" əsərində insanın mahiyyətini belə səciyyələndirir: "Düşünən insanlar dərk edirlər ki, cəmiyyət özü, yəni kollektiv şəkildə onu təşkil edən ayrı-ayrı fərdlərə münasibətdə tirana çevriləndə, onu tiranlığa doğru aparan vasitələr yalnız hakimiyyətin malik ola biləcəyi vasitələrlə məhdudlaşmır. Cəmiyyət özü öz qərarlarını yerinə yetirə bilər və yerinə yetirir. Əgər o, yanlış qərarlar, yaxud müdaxilə etməli olmadığı şeylərə müdaxiləyə təhrik edən qərarlar qəbul edirsə, onun tiranlığı bütün mümkün siyasi tiranlıqlardan daha qorxuludur, çünki onun tiranlığı, düzdür, hər hansı ifrat cinayyət vasitələrinə söykənmir. Lakin ondan xilas olmaq daha çətindir - o, şəxsi həyatın bütün incəliklərinə qədər işləyir və əsarət altına alır.

...İnsan həyatının yalnız fərdin özünə aid hissəsi ilə başqa adamlara aid olan hissəsi arasında etdiyimiz fərq, şübhəsiz, çoxlu əleyhdar doğuracaqdır. Bizə etiraz edə bilərlər ki, fərdin hərəkətləri heç bir halda, onunla bir cəmiyyətdə yaşayan digər fərdlərə çox, yaxud az dərəcədə toxunmaya bilməz, fərd heç bir halda, başqa adamlardan tamamilə kənarlaşa bilməz və əgər o, özünə pislik edirsə, bu, heç olmasa, ona xüsusilə, yaxın olan adamlara, hətta çox vaxt onunla o qədər də yaxın münasibətdə olmayan adamlara da çox, yaxud da az dərəcədə ziyan verməyə bilməz... Nəhayət, əgər fərd öz qüsurları, yaxud düşüncəsiz hərəkətləri ilə digər adamlara birbaşa ziyan vurmursa da, hər halda, pis nümunəsi ilə ziyan yetirməmiş olmur, ona görə də, o, başqalarını haqq yolundan sapdıra, yaxud aldada biləcək hərəkətlərdən çəkinməyə ədalətli olaraq, məcbur edilə bilər... Onlar deyə bilərlər ki, burada söhbət şəxsiyyətin sıxışdırılmasından, yaxud hər hansı yeni, orijinal ideyanın sınaqdan çıxarılmasına mane olmaqdan deyil, çoxdan sınaqdan çıxarılmış və təcrübəni özü ilə rədd edilmiş şeylərin, təcrübə nəticəsində hər hansı fərd üçün sərfəli, yaxud yararlı olmadığı aşkar edilmiş şeylərin qarşısının alınmasından gedir..."

İnsan təbiətin ayrılmaz bir hissəsidir. Lakin insanın təbiət, sosial mahiyyəti və taleyi təkcə təbiətlə bağlı deyil. İnsan "sosial orqanizm"i xatırladan, yaxud belə orqanizm kimi tanınan cəmiyyətin ən vacib və əvəzsiz ayrılmaz hissəsidir. Ona görə də, ilk növbədə, insan cəmiyyətinin mahiyyətinə qısa ekskurs etməyi məqsədəuyğun sayırıq.

Cəmiyyət, bu, sözün əsl mənasında, ən geniş planda bütün insanlıq (bəşəriyyət), bir-birini tarixi-xronoloji ardıcıllıqla əvəz edən, müxtəlif inkişaf dövrlərində tarixən qarşılıqlı əlaqədə olan və keyfiyyət baxımından son dərəcə mürəkkəb olan sosial orqanizmdir.

Cəmiyyət, məhz cansız olmadığı üçün dayanıqlığı qəbul etmir. T.Parsons yazırdı: "Biz cəmiyyətə sosial sistemin elə bir tipi kimi tərif veririk ki, o, digər sosial sistemləri də öz mühitinə nisbətdə birləşdirir. Hər bir sistem özünü saxlamaq üçün ətraf sistemlərlə qarşılıqlı əlaqə yaratmalıdır. Deməli, qarşılıqlı mübadilə münasibətlərinin sabitliyi və belə sabitlik üçün nəzarət qabiliyyətinin olması vacibdir. Bu nəzarət hər hansı pozuntunun qarşısını almaq qabiliyyətindən başlayaraq, ətraf mühit ilə münasibətini özü üçün əlverişli şəkildə qurmaq qabiliyyətinə qədər müxtəlif formalarda təzahür edə bilər. Belə nəticə hasil olunur ki, cəmiyyət heç də kortəbii fərmanın göstəricisi deyil və heç zaman da belə görüntüdə olmamışdır. O, təbii-tarixi inkişafın qanunauyğun yetirməsidir".

Azərbaycan tədqiqatçısı fəlsəfə elmləri doktoru Əbülhəsən Abbasov göstərir ki, qədim köklərə malik insan haqları ideyasının ortaya çıxdığı vaxtdan indiyə kimi onun şərhində, anlamında, ictimai praktikada reallaşmasında ciddi müxtəlifliyin olmasına baxmayaraq, onun əsas məğzinin insan varlığının qorunmasına yönəlməsi dəyişməz olaraq qalmış və inkişaf etdirmişdir. İnsan hüquqları ayrı-ayrı ölkələrdə, müxtəlif mədəniyyətlərdə özünəməxsus xüsusiyyətlərə malik olmuş və təkamül yolu keçmişdir. Hazırda insan hüquqları elə bir səviyyə və universallıq kəsb etmişdir ki, mahiyyətinin necə dərk olunmasından asılı olmayaraq, heç kim onların təkzibinə qarşı açıq-aşkar fikir ifadə etmir. Hətta ən totalitar dövlətlər və despotik rejimlər də onlar tərəfindən insan hüquqlarının "tam təmin edildiyini" bəyan etmək məcburiyyətindədirlər. Ə.Abbasov daha sonra yazır: "İnsan hüquqları anlayışı elmi ədəbiyyatda azad fərdlərəöz seçimi üzrə hərəkət etmək, layiqli həyat və yaşamaq üçün müəyyən nemətlərə sahibliyi reallaşdıran, onların öz aralarında, həmçinin dövlətlə və bütövlükdə, cəmiyyətlə qarşılıqlı münasibətlərini tənzimləyən hüquqi normaların məcmusukimi izah olunur. İnsanın davranışlarında və fəaliyyətində seçim imkanlarını mümkünləşdirən hüquqlar azadlıqları təşkil edir. Hər hansı rifah və nemətlərin və faydaların əldə olunması imkanı ilə bağlı normalar isə hüquqları təşkil edir. Bu gün insan hüquq və azadlıqları problemində daha çox fərdin dövlət müdaxiləsindən qorunması kimi deyil, insanın azad yaşaması və inkişafı üçün dövlət tərəfindən ən yaxşı şəraitin yaradılması müstəvisində baxılır. Başqa sözlə, dövlət vətəndaşın necə və nə cür yaşamasında, onun bioloji-psixoloji və ictimai tələbatlarının ödənilməsində birbaşa məsul hesab edilir. Müasir elmdə insan hüquqlarının müdafiəsini dövlətin başlıca funksiyası kimi səciyyələndirirlər. Belə ki, məhz dövlət, ilk növbədə, insan hüquqlarını müdafiə etməli və onun təmin olunması üçün lazımi tədbirləri görməlidir. İnsan hüquqları hər hansı bir imtiyazlı şəxsə aid deyil, o, bütün insanlara, hər bir şəxsə təmin olunmalı və dövlət hər kəsin hüquqlarını eyni səviyyədə müdafiə etməlidir.

Qeyd etmək lazımdır ki, insan hüquqlarının müdafiəsi sahəsində mövcud olan beynəlxalq müqavilələr fərdlərə, bilavasitə hüquqlar vermir. Bu müqavilələr, məhz dövləti orada "möhkəmlənmiş" insan hüquq və azadlıqlarına hörmət etmək və onların təminatı üçün zəruri tədbirləri görmək öhdəliyi müəyyən edir. Təsadüfi deyildir ki, 1948-ci ildə qəbul edilmiş "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə" bütün xalqların və dövlətlərin bir vəzifəsi kimi elan edir ki, hər bir insan, cəmiyyətin hər bir orqanı maarif və təhsil yolu ilə həmin hüquq və azadlıqlara hörmət edilməsinə, mütərəqqi milli və beynəlxalq tədbirlər vasitəsilə onların xalqlar arasında səmərəli tanınmasının və həyata keçirilməsinin təmin olunmasına səy göstərsinlər."

İnsan hüquqları qədimdən bəri müxtəlif din və mədəniyyətlərdə öz təzahürünü tapmışdır. Məsələn, bütün dinlərdə insanlarla xoş rəftar etmək, onlara işgəncə verməmək, yoxsullara, yaşlılara, əlillərə yardım göstərmək, uşaqlarla mehriban davranmaq və s. kimi normaların olduğu danılmazdır. Bütün bunlar da insan hüquqlarının təşəkkülündə öz rolunu oynamışdır. Burada Ümummilli Liderimiz Heydər Əliyevin çox dəyərli bir fikrini vurğulamaq yerinə düşərdi: "İnsanların mənəvi sərvətlərinin hamısından dinin fərqi odur ki, o, dini mənsubiyyətindən asılı olmayaraq, həmişə insanları dostluğa, həmrəyliyə, birliyə dəvət etmişdir."

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*




*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 29 sentyabr


## Göz yorğunluğu və kompüter



Kompüter son illər həyat və məişətimizə çox sıx daxil olmuş müasir texnoloji vasitələrdəndir. Ofis işində çalışanların demək olar ki, əksəriyyəti kompüter arxasında uzun müddət oturmaqdan yaranan göz yorğunluğundan şikayət edir.

AZƏRTAC-a müsahibəsində Respublika Neyrocərrahiyyə Xəstəxanasının həkim-oftalmoloqu Gültəkin Məmmədova bu sahədə bəzi məsləhətlər verib: “Normal qaydada, fasilələrlə kompüterdə işləmək gözləri yormur. Lakin uzun müddət monitorun ekranına baxdıqda gözlər qızarır və yorğun görünür. Aparılan araşdırmalar göstərib ki, kompüter arxasında işləyərkən gözlər normadan üç dəfə az qırpılır. Qırpmanın gözün nəm qalmasını təmin etdiyini nəzərə alsaq, kompüterə uzun müddət baxanların görmə orqanlarının niyə quruduğunu və yorğunluğun yaranma səbəbini başa düşmək çətin deyil”.

Həkimin sözlərinə görə, bəzi məsləhətlərə əməl edərək göz yorğunluğunu azaltmaq, onlara davamlı əməl edəndə isə həmin problemdən tam xilas olmaq mümkündür. Məsələn, qısa fasilələr verərək gözləri dincəltmək, gözləri davamlı olaraq bir neçə dəfə qırpmaq, başı sabit tutaraq sağ və sol çiyinə, eləcə də aşağı-yuxarı baxmaqla yanaşı, kompüterdən uzaqda yerləşən əşyalara baxaraq göz yorğunluğunu azaltmaq olar. Gülümbahar çiçəklərini qaynar suda dəmləyəndən sonra tənzifin arasında gözlərə qoyaraq 15 dəqiqə saxlamaq göz yorğunluğunu azaldır. Uzun sürən kompüter işindən əvvəl və sonra librikant, yəni süni göz yaşı damlalarından istifadə etmək olar.

## Kakao D2 vitamini mənbələrindən biridir




İnsanın gündəlik rasionu üçün vacib olan əsas qidalardan biri də D vitaminidir. Onun çatışmazlığı orqanizmdə nəfəs yollarının infeksion xəstəlikləri, raxit və osteoparoz kimi problemlərin yaranmasına səbəb ola bilər. Almaniyanın Maks Rubner İnstitutunun və Qalle-Vettenberq Universitetinin tədqiqatçılarının apardıqları araşdırmaların nəticəsinə görə D2 vitamini ilə zəngin qidalar arasında əsas yeri tərkibi kakao olan məhsullar tutur.

AZƏRTAC xəbər verir ki, alimlərin fikrincə günəş şüaları altında qurudulmuş kakao meyvələrinin tərkibi struktur dəyişikliklərinə uğrayaraq D və D2 vitaminləri formalaşdırır.

Kakao tərkibli müxtəlif məhsullar üzərində aparılan tədqiqatlar bir daha sübut edib ki, bu qida əsas D2 vitamini mənbələrindən biridir. Alimlər kakao əsaslı qidaların tərkibində bu faydalı məhsulun müxtəlif miqdarda olduğunu da bildiriblər. Belə ki, kakao yağı və tünd şokoladda D2 vitamini digər məhsullara nisbətən daha çoxdur.

## Yeni mövsümdə “Barselona”nın loqosunda dəyişiklik olunacaq




İspaniyanın “Barselona” futbol klubunun 2019/2020-ci il mövsümündə loqosunda dəyişiklik olunacaq. Klubun rəsmi saytında yer alan məlumata görə, istifadəyə veriləcək yeni loqonun forması saxlanılıb. Dəyişiklik yalnız “FCB” yazısının yığışdırılması olub. Sonuncu dəfə klub 2002-ci ildə loqo dəyişikliyi edib. “Barselona” 25 dəfə İspaniya çempionu olub, həmçinin 30 dəfə İspaniya kubokunun, 13 dəfə İspaniya Super kubokunun, 5 dəfə UEFA Çempionlar Liqasının və UEFA Super kubokunun qalibidir.

## Polo üzrə Azərbaycan millisinin zəfər yürüşü davam edir



İtaliyanın Siyene şəhərində davam edən Polo üzrə Avropa çempionatında bu gün 4-cü turun oyunları keçirilib. SİA-nın məlumatına görə, çempionatın 4-cü turunda “A” qrupunun liderləri - Azərbaycan və İrlandiya milliləri görüşüblər. Bu qarşılaşmaya qədər hər iki komanda 3 qələbə qazanaraq turnir cədvəlinin 1-ci və 2-ci pillələrini bölüşürdülər. Hazırki Avropa çempionu olan İrlandiya komandası ilə gərgin mübarizə şəraitində keçən görüş bütün azarkeşlərə həyacan dolu dəqiqələr yaşadıb. Güclü iradə və yüksək peşəkarlıq nümayiş etdirən idmançılarımız rəqiblərini 5:3,5 hesabı ilə məğlub edərək Azərbaycan atçılıq idmanı tarixində ilk dəfə olaraq Avropa çempionatının finalına yüksəliblər. Mübarizəni Avropa birinciliyinin bürünc medalları uğrunda davam etdirmək məcburiyyətində qalan İrlandiya yığması ilə qarşılaşmada idmançılarımızdan Elçin Camallı və Fabian Bolanterio xüsusilə fərqləniblər.

Xatırladaq ki, atçılıq idmanı tarixinizə yeni səhifə yazan millimiz Avropa çempionatının əvvəlki turlarında Niderland komandasını 7:3, Fransa millisini 8:4, Slovakiya yığmasını isə 11:7 hesabı ilə məğlub edib.

## AFFA-nın baş katibi yığmamızın üzvləri ilə görüşüb



Sentyabrın 28-də AFFA-nın baş katibi Elxan Məmmədov 19 yaşadək futbolçulardan ibarət Azərbaycan yığmasının üzvləri ilə görüşüb. AZƏRTAC xəbər verir ki, baş katib Avropa çempionatının seçmə mərhələsində mübarizə aparacaq yığmamıza uğurlar arzulayıb. Qeyd edək ki, yığmamız Avropa çempionatının ilkin seçmə mərhələsi çərçivəsində oktyabrın 3-də Türkiyə, 6-da İsveçrə, 2 gün sonra isə Kipr komandası ilə qarşılaşacaq. Yığmamızın mübarizə aparacağı ikinci qrupun oyunları Türkiyədə təşkil olunacaq.

## Brayan Aqerbak: “Gələcəkdə Bakıda badminton üzrə Avropa və dünya çempionatı keçirilə bilər”



Növbəti il Bakıda keçiriləcək “Azerbaijan International-2019” turnirindən gözləntilərimiz böyükdür. Mən ilk Avropa Oyunları zamanı Bakıda oldum. Azərbaycanın böyük və nüfuzlu idman tədbirlərini necə yüksək səviyyədə təşkil etdiyinin əyani şahidiyəm. Bu mənada böyük təcrübə və hazır idman infrastrukturu var. Avropa Oyunlarından da miras qalıb.

AZƏRTAC xəbər verir ki, bu sözləri Avropa Badminton Konfederasiyasının baş katibi Brayan Aqerbak Azərbaycan Badminton Federasiyasının mətbuat xidmətinə müsahibəsində deyib.

B.Aqerbak bildirib ki, Azərbaycan Badminton Federasiyası inkişaf edir və bu cür böyük idman yarışlarını təşkil etməyə hazırdır. Avropa Oyunlarında qazanılan böyük təcrübə bu kimi idman tədbirlərinin təşkilində mühüm rol oynayır. Düşünürəm ki, badminton üzrə beynəlxalq turnir də ən yüksək səviyyədə təşkil olunacaq. İnfrastruktur və böyük beynəlxalq təcrübəyə əsaslanaraq deyə bilərəm ki, gələcəkdə Bakıda badminton üzrə Avropa və dünya çempionatı keçirilə bilər. Xüsusilə qeyd etməliyəm ki, Azərbaycanda idmana böyük diqqət ayrılır. İlk Avropa Oyunlarından sonra azərbaycanlı badmintonçular beynəlxalq turnirlərdə yaxşı mübarizə aparırlar. Azərbaycan Badminton Federasiyası Avropa Badminton Konfederasiyasının ümumi fəaliyyətində, illik tədbirlərimizdə fəal iştirak edir. Ümumi əməkdaşlığa dostcasına töhfə verir. Azərbaycan Badminton Federasiyası Avropa badminton ailəsinin çox əhəmiyyətli tərəfdaşıdır və bu əməkdaşlığın gələcəkdə də davam edəcəyinə inanıram.

Qeyd edək ki, “Azerbaijan International-2019” beynəlxalq badminton turniri gələn il iyunun 6-9-da Bakı İdman Sarayında keçiriləcək. Beş kateqoriya üzrə qalib və mükafatçıların müəyyənləşəcəyi yarışın ümumi mükafat fondu 25 min ABŞ dollarıdır.


*Baş redaktor:*

**Bəhruz Quliyev**

*Baş redaktorun müavinləri:*

**Valeh Məhərrəmli**
**Fətulla Həsənov**

**Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**Tel:598-33-90 Faks:493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet “Səs”in kompüter mərkəzində yığılır, səhifələnir.**
**“Azərbaycan” nəşriyyatında çap olunur**
***Qəzetdə AzərTAc, SİA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.***

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**
**Tiraj: 5500**